www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 mart 2025-ci il Çərşənbə № 46 (8656) Qiymәti 60 qəpik

## Xəbər

### Məşhur klinikalarla bağlı yeni qalmaqal

yazısı səh.3-də

## Gündəm

### Bakıda yeni dünya düzəninin müzakirəsi başlayır



Azərbaycan paytaxtı daha bir beynəlxalq tədbirə ev sahibliyi edəcək

yazısı səh.6-da

### Plastik cərrahlar qiyməti qaldırdı - burun 5 min...

yazısı səh.3-də

### "Türkiyə sərhədini açmağa Bakı imkan vermir" yalanı

yazısı səh.4-də

### ABŞ-la Azərbaycanın mümkün tərəfdaşlıq sazişi

yazısı səh.8-də

### KTMT ermənilərdən pul istəyir

yazısı səh.11-də

### "Napoleonun ölkəsi"nin məğlubiyyət etirafı

yazısı səh.7-də

### Generalın apelyasiya məhkəməsi başladı

yazısı səh.12-də

### "Oxumaq, oxumaq, yenə də oxumaq"a etiraz

yazısı səh.13-də

### Televiziyada animasiyaya niyə yer yoxdur?

yazısı səh.15-də

### Ramazan ayının 12-ci günü

İftar 18.59. İmsak 05.30-dək (Bakı)

12-ci günün duası: "İlahi, məni bu gün günahdan qorunub iffətli olmaqla zinətləndir! Mənə kifayətçillik və qənaət libasını geyindir! Məni belə bir gündə ədalət və insafla yaşamağa müvəffəq et! Məni qorxduğum bütün şeylərdən amanda saxla! İsmətinə and verirəm ey qorxu içindı olanların Mühafizəçisi!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# PAŞİNYAN ÜÇÜN "GAME OVER" ZAMANI

ABŞ-Rusiya dialoqunun bərpası Moskvanın gözünün çoxdankı düşməni olan hazırkı erməni iqtidarının canına vəlvələ salıb; Trampın İrana təzyiq niyyəti də İrəvanı çətin dilemma qarşısında qoymaqdadır...

yazısı səh.5-də



# Azərbaycana qarşı təxribat hazırlığı anonsu

Rəsmi İrəvanın sülh müqaviləsini gecikdirməsi revanşistlərin hərəkətə keçməsinə imkan yaradıb; belə avantürist qüvvələrdən birinə ölkənin keçmiş baş diplomatı rəhbərlik edir

yazısı səh.9-da



Mehriban Ələkbərzadə

### "AzDrama"da bədii rəhbərə qarşı "qiyam"

yazısı səh.10-da



Sahibə Qafarova

### Putinin spikeri təltifinin doğurduğu reaksiya

yazısı səh.6-da



### Müxalifətdə radikallar və liberallar müzakirəsi qızışdı - Pənah Hüseynin mövqeyi

yazısı səh.10-da



## Şimali Makedoniya Prezidenti Bakıya heyranlığını bildirdi

**Martın 11-də Prezident İlham Əliyev Azərbaycana rəsmi səfərə gələn Şimali Makedoniya Prezidenti Qordana Silyanovska-Davkova ilə görüşüb. Daha sonra lanç əsnasında görüş geniş tərkibdə davam etdirilib. Prezidentlər birgə bəyanatla da çıxış ediblər.**

"Son ayların müsbət əlaməti də ondan ibarətdir ki, iki ölkə energetika sahəsində əməkdaşlığa başlamışdır. Azərbaycan qazı artıq Şimali Makedoniyanın bazarına çatdırılmışdır və bu, keçən ilin sonlarında baş verdi, bu il artıq müntəzəm olaraq Azərbaycan sizin bazarınızı təbii qazla təmin edəcəkdir. Gələcəkdə biz lazım olan həcmdə qaz təchizatını artıra bilərik", - deyə İlham Əliyev bildirib.

"Xalqlarımızın humanitar sahədə əməkdaşlığına da böyük ehtiyac var. Şadam ki, Siz eyni zamanda XII Qlobal Bakı Forumunda iştirak edəcəksiniz. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil olunan bu forum dünya miqyasında layiqli yerini tuta bilib. Əlbəttə ki, Sizin dəyərli fikirləriniz, tövsiyələriniz hamı üçün maraqlı olacaq. Siz bizim tələbələrimizlə də görüşəcəksiniz. Buna görə də Sizə təşəkkürümü bildirirəm", - deyə Azərbaycanın dövlət başçısı vurğulayıb.

"Azərbaycan hətta təyyarədən belə çox gözəl görünür, ölkənizlə əyani tanışlıqda isə o, insanı valeh edir", - deyə qonaq ölkənin dövlət başçısı çıxışında deyib. "Biz yalnız qaz təchizatında Azərbaycandan yardım alacağıq, o cümlədən iqtisadi əməkdaşlıq üçün də imkanlar yaranacaq", - deyə Qordana Silyanovska-Davkova bildirib.

## Hökumə Əliyevanın büstü nə vaxt hazır olacaq?



**Milli Qəhrəman Hökumə Əliyevanın büstü hazırlanır.**

Bu barədə Hökumə Əliyevanın atası Cəlil Alıyev bildirib. O qeyd edib ki, büst Fəxri Xiyabanda qoyulacaq.

Cəlil Alıyev həmçinin bildirib ki, Rusiyanın sığorta şirkətinin kompensasiya təklifi barədə məlumatı ancaq xəbərlərdə görüb, ona bu barədə rəsmi məlumat verilməyib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2024-cü il tarixli Sərəncamı ilə Əliyeva Hökumə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsi Bakı-Qroznı reysini həyata keçirərkən baş vermiş qəza zamanı xidməti vəzifələrinin yerinə yetirilməsində, sərnişinlərin həyatının xilas edilməsində yüksək peşəkarlıq, şücaət və fədakarlıq göstərdiyinə görə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

## Rusiya "İnterpol"un axtardığı üç nəfəri Azərbaycana verdi



**Beynəlxalq axtarışa verilmiş daha 3 şəxs Azərbaycana ekstradisiya edilib.**

Bu barədə Baş Prokurorluğun mətbuat xidməti məlumat yayıb.

Məlumata görə, "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında» 07.10.2002-ci il tarixli Konvensiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşları Abdullayev İframin Elbrus oğlu, Yusufov Emin Boris oğlu və Mehdiyev Natiq İsgəndər oğlunun ekstradisiyaları haqqında Baş Prokurorluğun vəsatətləri Rusiya Federasiyasının Baş Prokurorluğu tərəfindən təmin edilib.

Onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulmuş cinayət əməllərini törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən, barələrində təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilib və istintaqdan qaçıb gizləndiklərinə görə beynəlxalq axtarışa veriliblər.

Qeyd olunan şəxslər Rusiya Federasiyasının ərazisində saxlanılaraq Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə Azərbaycana gətiriliblər.

# Vardanyanın mühakiməsində yeni faktlar



**Azərbaycan Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, həmçinin terrorçuluq, terrorçuluğu maliyyələşdirməyə dair maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesinin baxış iclasında şahid ifadə verib.**

Şahid qismində ifadə verən Qarabağda yaşayan erməniəsilli şəxs 44 günlük müharibədən bir müddət sonra Ruben Vardanyanın Xankəndinə gəldiyini bildirib və deyib: "Bilmirəm Rusiyadan gəlmişdi, ya başqa yerdən".

O, R.Vardanyanın sponsorluq edərək Azərbaycana qarşı vuruşmaq üçün yaşı 45-50-dək olan insanlardan ibarət dəstələr yaratdığını, onları maliyyələşdirdiyini bildirib. "Çox sayda cavan insan gedib o qruplaşmalara yazılmışdı. Mənim üçün maraqlı o idi ki, dünyada tanınmış biznesmen, oliqarx Ruben Vardanyan, - mən demirəm ki, o, mənim düşmənimdir, yox, - nəyə görə öz biznesini qoyub Qarabağa gəlmişdi?"

Şahid insanların 700-2000 dollar müqabilində dəstəyə qoşularaq hərbi təlimlərə cəlb olunduğunu deyib.

Daha sonra şahidin DTX-də ibtidai istintaq zamanı verdiyi ifadə elan olunub. Şahid ibtidai istintaqda verdiyi ifadəsini təsdiqləyib.

❑ (APA)



## Bakıdakı dumanın səbəbi bu imiş

**Ölkə ərazisində müşahidə olunan dumanlı hava şəraitinin martın 14-dək fasilələrlə davam edəcəyi gözlənilir.**

Milli Hidrometeorologiya Xidmətindən bildirilib ki, martın 11-i saat 9:00-a olan məlumatına əsasən ölkə ərazisinin bəzi yerlərində dumanlı hava şəraiti davam edir.

Hazırda Bakıda və Abşeron yarımadasında, eyni zamanda Quba, Cəfərxan, Hacıqabul, Neftçala, Biləsuvar, Astara, Naftalan, Şəmkir, Şabran, Bərdə, Yexlax, Zərdab, Beyləqan, İmişli, Sabirabad və Ağdamda duman müşahidə olunur. Dumanda görünüş 50-500 metrədək məhdudlaşır.

Son günlər müşahidə olunan dumanlı havaya səbəb Azərbaycana Xəzər dənizi istiqamətindən isti və rütubətli hava daxil olmasıdır. Qış fəslindən yeni çıxdığımız üçün yer səthi də hazırda soyuqdur. İsti və rütubətli hava soyuqla birləşdikdə kondensasiyaya uğrayır. Hazırda isti hava yüksəlir, aşağı yerlərdə isə soyuq qalır.

## Pay torpağı olan 58 min ailəyə çıxarış verilib


ÇIXARIŞ

**Prezident İlham Əliyevin "Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında" 7 oktyabr 2021-ci il tarixli fərmanına uyğun olaraq İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti indiyə qədər mülkiyyət sənədləri ilə təmin edilməmiş pay torpaqlarının sahibi olan 58 024 ailəyə dövlət vəsaiti hesabına çıxarış verib, 384 760 dövlət aktını isə çıxarışla əvəz edib.**

Əmlak Məsələləri Dövlət Xidməti xəbər verir ki, məqsəd əhalinin sosial rifahının yaxşılaşdırılmasına, kənd təsərrüfatının inkişafı və fermerlərin subsidiyalardan faydalanmasının təmin edilməsinə, həmçinin vətəndaşların əmlak hüquqlarından daha səmərəli istifadə etməsinə, xidmətlərdən daha operativ və rahat şəkildə yararlanmasına imkan yaratmaqdır.

Dövlət başçısı bu il fevralın 28-də sözügedən fərmanının 2.1-ci bəndinə dəyişiklik edib. Əgər indiyə qədər fərmanda 2025-ci ilin yanvarın 1-dən əkin sahələrinin istifadəçilərinə aqrar sahədə subsidiyaların torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüquqlarına dair daşınmaz əmlakın dövlət reyestrindən çıxarış əsasında verilməsi nəzərdə tuturdusa, müvafiq dəyişikliklə bu müddət 2027-ci il yanvarın 1-nə qədər uzadılıb.


Əli Əsədov

## Baş nazirdən Rəqabət Məcəlləsi ilə bağlı qərar

**Nazirlər Kabineti "Rəqabət Məcəlləsinin tələbləri tətbiq edilməyən və ya məhdud tətbiq edilə bilən hallar, fəaliyyət sahələri və məhsullar"ı təsdiq edib.**

Bununla bağlı baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Bu sənəd Rəqabət Məcəlləsinə əsasən hazırlanıb. Məcəllənin tələbləri tətbiq edilməyən və ya məhdud tətbiq edilə bilən hallar aşağıdakılardır:

- Bütün ölkə ərazisində və ya ayrı-ayrı yerlərində (bu halda hərbi vəziyyət elan edildiyi ərazinin (ərazilərin) hüdudlarında) hərbi vəziyyət elan edildikdə;

- Ölkənin ayrı-ayrı yerlərində fövqəladə vəziyyət elan edildikdə (elan edildiyi ərazidə).


Xaliq Hüseynov

## Vəzifədən azad edilən generalın yerinə təyinat oldu

**Fövqəladə Hallar Nazirliyinin (FHN) Xüsusi Riskli Xilasetmə Xidmətinin rəisinin birinci müavini - Qərargah rəisi vəzifəsinə yeni təyinat olub.**

Manset.az xəbər verir ki, fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun müvafiq əmri ilə Mülki müdafiə qoşunlarının "N" saylı hərbi hissəsinin alay komandiri polkovnik Xaliq Hüseynov sözügedən vəzifəyə təyin edilib.

Qeyd edək ki, Xüsusi Riskli Xilasetmə Xidməti rəisinin birinci müavini - Qərargah rəisi general-mayor Raul Zeynalov bir müddət bundan əvvəl vəzifəsindən azad edilib.




## "Turan" agentliyi ləğvlə bağlı müraciət etdi

**Ləğv prosesində olan "Turan İnformasiya Agentliyi" MMC kreditorlarına müraciət edib.**

Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin "Vergilər" qəzeti xəbər verir.

Məlumata görə, kreditorlar iki ay ərzində tələblərini Bakı şəhəri, Nəsimi rayonu, Süleyman Rəhimov küçəsi, ev 186, mənzil 24 ünvanına bildirə bilərlər.

YENİ MÜSAVAT
N 46 (8656) 12 mart 2025

# Plastik cərrahlar qiyməti qaldırdı - burun 5 min...

## Ekspert deyir ki, bundan sonra vətəndaşlar da qərar qəbul edərkən məsuliyyətli davranmalı olacaqlar

**Son aylarda plastik cərrahların fəaliyyətinin ciddi yoxlanması nəticəsində 2025-ci ilin fevral ayında bir neçə plastik cərrahın sertifikasiya şəhadətnamələri ləğv edildi. Səhiyyə nazirinin müvafiq əmri ilə Səhiyyə Nazirliyinin, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin, Elm və Təhsil Nazirliyinin səlahiyyətli nümayəndələrindən ibarət Xüsusi Təftiş Komissiyası hələ fəaliyyətini davam etdirir.**

Səhiyyə Nazirliyinə 82 mütəxəssis tərəfindən sənədlər tələb olunan qaydada təqdim edilib. Xüsusi Təftiş Komissiyası daxil olan sənədləri onları təqdim edən şəxslərin iştirakı ilə fərdi qaydada yoxlamanı davam etdirir. Yekun nəticələr barədə ictimaiyyətə ətraflı məlumat veriləcək.

Qeyd edək ki, bu tarixədək sənədlərini təqdim etməyən mütəxəssislərin praktik tibb fəaliyyəti ilə məşğul olmağa buraxılma barədə şəhadətnamə və ya sertifikasiya şəhadətnaməsi ləğv olunmuş hesab edilir.

Proses hələ davam etsə də, tələblərə cavab verməyən bəzilərinin bu sektordan çıxarılması həm cərrahların, həm də klinikaların fəaliyyətinə ciddi təsir göstərib. Belə ki, yoxlamalar və cəzalar səbəbindən artıq bu sahədə fəaliyyət göstərənlərin sayı azalıb. Məlumata görə, bunun nəticəsində plastik və estetik xidmətlərin qiymətləri əhəmiyyətli dərəcədə bahalaşıb.

Dərman və tibbi vasitələrin qiyməti stabil qalsa da, kosmetoloqlar, plastik cərrahlar öz xidmət haqlarını artırıblar. Bunun əsas səbəbi isə sektorda daha az sayda mütəxəssisin qalması və onların "mən saxta deyiləm" mesajı vermək istəməsidir. Hazırda plastik cərrahi əməliyyatlarını tənzimləyən ayrıca yerli protokollar mövcud deyil. İcra olunan əməliyyatlar müvafiq beynəlxalq plastik cərrahiyyə standartlarının protokollarına uyğun həyata keçirilir: "Məlumat üçün bildirmək istərdik ki, hazırda Səhiyyə Nazirliyi tərəfindən bir sıra ixtisas sahələri üzrə klinik protokolların hazırlanması üzərində iş gedir. Plastik cərrahiyyə də bu sahələrdəndir. Məsələn, Azərbaycanda çox icra olunan burun əməliyyatının qiyməti 800 AZN ilə 4500 AZN arası dəyişirdi. Burun əməliyyatının qiyməti ortalama 1700-2500 AZN arası idi.

Qeyd edək ki, mövzu ilə bağlı bir neçə estetik cərrahla əlaqə saxladıq, onlar cavab verməkdən yayındılar. Bildirdilər ki, araşdırmalar hələ davam etdiyinə görə açıqlama verməyə icazələri yoxdur.

**Bakı Ağrı Klinikasının baş həkimi Zülfüqar Yusifov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "Plastik əməliyyatlar sahəsində baş verən son proseslər gözlənilən idi. Belə ki, sənədləri təsdiqlənmiş əməliyyatların sayında müşahidə olunan azalma, bu sahədə yüksək tələbat fonunda qiymətlərin dəyişməsinə səbəb ola bilərdi. Əslində qiymət artımına dair müəyyən sərbəstlik əvvəldən mövcud idi



və klinikalar bu çərçivədə hansı xidmətlərə hansı tarifləri tətbiq edəcəklərini özləri müəyyənləşdirirdilər. Bu da o deməkdir ki, qiymətlərdə vahidlik yoxdur və müxtəlif klinikalarda fərqli təkliflər mövcuddur.

Bazar iqtisadiyyatının qaydalarına əsasən, fərqli seçimlərin olması təbiidir. Xüsusilə nəzərə almaq lazımdır ki, bu xidmətlər adətən icbari tibbi sığorta paketlərinə daxil edilmir. Bu səbəbdən də burada tətbiq olunan qiymət siyasəti fərqli yanaşmalarla müşayiət oluna bilər.

Digər tərəfdən, nazirliyin də vurğuladığı kimi, estetik əməliyyatlara qərar verilməzdən əvvəl peşəkar konsultasiyaların alınması mühüm əhəmiyyət daşıyır. Əgər əməliyyatlar həqiqətən də sağlamlıq üçün zəruridirsə, və ya insanın psixoloji rahatlığını təmin etmək üçündürsə, əlbəttə ki, belə müdaxilələr zəruri hesab oluna bilər. Lakin müşahidələr göstərir ki, bir çox hallarda insanlar sırf vizual dəyişikliyə nail olmaq məqsədilə təkrar-təkrar əməliyyatlara üz tuturlar. Görünür, qiymət artımı və mövcud ajiotaj fonunda insanlar bu sahədə qərar qəbul edərkən daha düşünülmüş və məsuliyyətli davranmalı olacaqlar. Bununla belə, mövcud vəziyyətin keçici xarakter daşıdığını düşünürəm. Hazırkı qeyri-sabitlik müəyyən müddət sonra bazarda balansın bərpa olunmasına, nəticədə isə qiymətlərin daha adekvat və dayanıqlı səviyyəyə enməsinə gətirib çıxaracaq".

Qeyd edək ki, Azərbaycanda plastik əməliyyatların qiymətləri növünə, cərrahın təcrübəsinə və klinikanın nüfuzuna görə dəyişir. Rinoplastika (burun əməliyyatı) 800 manatdan başlayaraq 3000 manata qədər yüksələ bilər. Məsələn, bəzi klinikalarda rinoplastika əməliyyatı 1000-1200 manat aralığında təklif olunur, digər klinikalarda isə qiymətlər 1500 manatdan başlayır. Mamoplastikanın (süd vəzilərinin böyüdülməsi) qiyməti təxminən 2500 manatdan başlayır. Abdominoplastika (qarın gərmə): Bu əməliyyatın qiyməti 2000 manatdan başlayır. Liposaksiya (bədəndən artıq piylərin götürülməsi): Qiymətlər 1500 manatdan başlayır. Blefaroplastika (göz qapaqlarının korreksiyası): Göz ətrafındakı qırışların yığışdırılması əməliyyatı 800-1000 manata başa gəlir. Bu qiymətlər təxminidir, klinikadan və cərrahın təcrübəsindən asılı olaraq dəyişə bilər.

# Məşhur klinikalarla bağlı yeni qalmaqal

## Saxta diplomlu türkiyəli uzman fizioterapevt necə işə götürülüb?

**Türkiyə vətəndaşı uzman fizioterapevt Musa Kılıç peşə ixtisasının tanınması üçün Səhiyyə Nazirliyində keçirilmiş imtahana dəvət olunub, imtahanda müvafiq keçid balını toplaya bilmədiyi üçün uğursuz nəticə əldə edib və ona TKTA tərəfindən yalnız akademik tanınma şəhadətnaməsi təqdim olunub.**




Bu barədə Təhsildə Keyfiyyət Təminatı Agentliyindən məlumat verilib. Qeyd olunub ki, martın 2-si sosial mediada Türkiyə vətəndaşı Musa Kılıçın bakalavriat səviyyəsi üzrə Tiflis Dövlət Tibb Universitetindən əldə etdiyi diplomun saxta olduğuna dair məlumat paylaşılıb və müvafiq qurum tərəfindən adıkeçən şəxsin kvalifikasiyasının tanınmadığına dair fərziyyə irəli sürülüb.

Xarici kvalifikasiyaların tanınması üzrə məsul qurum olaraq Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) qeyd olunan məqamı aydınlaşdırmaq zərurəti yaranıb: "Qeyd etmək istərdik ki, M.Kılıç "Fizioterapiya və tibbi reabilitasiya" ixtisası üzrə əldə etdiyi dövlət nümunəli (həqiqi) ali təhsil sənədi ilə xarici kvalifikasiyasının tanınması üçün TKTA-ya müraciət edib. M.Kılıçın müraciəti üzrə icraat Nazirlər Kabinetinin 2023-cü il 3 fevral tarixli, 34 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"na əsasən aparılıb. M.Kılıç peşə ixtisasının tanınması üçün Səhiyyə Nazirliyində keçirilmiş imtahana dəvət olunu, imtahanda müvafiq keçid balını toplaya bilmədiyi üçün uğursuz nəticə əldə edib və ona TKTA tərəfindən yalnız akademik tanınma şəhadətnaməsi təqdim olunub. Sözügedən şəhadətnamədə də qeyd olunduğu kimi, akademik tanınma ərizəçiyə yalnız Azərbaycan Respublikası ərazisində təhsilin növbəti pilləsi (səviyyəsi) üzrə təhsilini davam etdirmək hüququ verir". Bundan əvvəl isə ABŞ-da yaşayan jurnalist Qənirə Ataşova Musa Kılıçın saxta sənədlərlə fəaliyyət göstərdiyini, buna baxmayaraq, il ərzində 500 min manat pul qazandığını sübut edən dəlillər paylaşmışdı.

Bundan sonra Musa Kılıçın fəaliyyətinin dondurulması gözlənilirdi. Lakin o, azərbaycanlıları təhqir etdiyi səs yazısı yaydı və hamıya meydan oxudu. Bəs Musa Kılıc bu gücü haradan alır? Ümumiyyətlə, Azərbaycana nə vaxt və necə gəlib? Buradakı karyerasına haradan başlayıb?

**Bakupost.az-ın bununla bağlı araşdırması zamanı maraqlı faktlar üzə çıxıb. Sayt yazır:** "Məlum olub ki, Musa Kılıçın Azərbaycana ayaq açması onun gürcü əsilli bir xanımla evlənməsindən sonra baş verib. Bundan sonra o, çalışmaq üçün müxtəlif klinikalara müraciət edib.

Özünü peşəkar həkim kimi təqdim edən Musa Kılıça ilk qapını 2018-ci ilin axırında Bakı Bərpa Mərkəzi açıb. Amma burada uzun zaman işləyə bilməyib. Bir neçə aydan sonra həmin mərkəzdən qalmaqalla ayrılıb. Daha sonra Musa Kılıç ARS Reabilitasiya Mərkəzində çalışıb, bir müddət sonra isə "İstanbul NS" klinikasına transfer olunub.

Məlumata görə, bu klinikada işləri pis getməyib. Onun aylıq qazancı 40-50 min civarında olub. Sonradan elə bu qazanc üstündə rəhbərliklə arası dəyib və işdən uzaqlaşdırılıb. Bir müddət sonra isə o, özünə "Medera" hospitalda yer edib. Bu günə kimi də həmin hospitalda fəaliyyət göstərir. Maraqlıdır ki, adları çəkilən klinikalar onu işə qəbul edərkən ixtisasça həkim olduğunu təsdiqləyən sənədi niyə yoxlamayıblar?" Bakupost.az bu barədə klinikalara sorğu unvanlayıb. Məsələnin davamı "Yeni Müsavat"ın da diqqətində olacaq.

❑ **"Yeni Müsavat"**

Yeni Müsavat
N 46 (8656) 12 mart 2025

# "Türkiyə sərhədini açmağa Bakı imkan vermir" iddiası

## Erməni rəsmiləri yeni hiyləyə əl ataraq özlərinə "alibi" axtarır; amma "daşı ətəyindən tökməsə..."

**Prezident İlham Əliyevin Türkiyəyə səfəri, İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı vasitəsilə açılış mərasimi və iki ölkə arasında qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi üçün atılmalı olan addımlar Ermənistanda ciddi narahatlıq yaradıb.**

"Yeni Müsavat"ın siyasət şöbəsi yazır ki, Prezidentin qaz kəmərinin açılış mərasimində çıxışı zamanı Naxçıvanla bağlı söylədikləri xüsusilə narahatlığa və qıcığa səbəb olub. **Sitat:** "Naxçıvan qədim Azərbaycan torpağıdır. Ancaq artıq bir əsrdən çoxdur ki, Azərbaycanın əsas hissəsindən ayrılıb. Bunun səbəbi ondan ibarətdir ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut edəndən beş ay sonra sovet hakimiyyəti Qərbi Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana birləşdirdi və beləliklə, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvanla quru bağlantısı pozulub. Bir əsrdən çox davam edən bu ədalətsizlik Naxçıvanda yaşayan bizim soydaşlarımızın həyatına çox mənfi təsir göstərmişdir. Xüsusilə Birinci Qarabağ savaşı başlayan kimi Ermənistan Qarabağı işğal etdi və eyni zamanda Naxçıvanı blokadaya aldı".

Erməni mediası bu çıxışın ardınca yazır ki, İlham Əliyev tarixən Azərbaycana məxsus olmasını dilə gətirməklə guya Ermənistana qarşı torpaq iddiasını ortaya qoyub. Əslində Şərqi Zəngəzurun yüz il əvvəl Ermənistana birləşdirildiyi elə bir tarixi faktdır ki, onu heç kim inkar və ya təkzib edə bilməz. Daha bir yalan isə Türkiyə-Ermənistan sərhədi ilə bağlıdır: Ermənistan parlamentin xarici əlaqələr komissiyasının sədri Sarkis Xandanyanın sözlərinə görə, "elə təəssürat yaranır ki, Azərbaycan Ermənistan və Türkiyə arasında münasibətlərin normallaşması prosesini dalana salmağa çalışır". "Biz bu məsələni Türkiyənin rəsmi şəxsləri ilə müzakirə edirik. Fikrimcə, əksinə, Ermənistan və Türkiyə arasında münasibətlərin qurulması Ermənistan və Azərbaycan arasında sülh prosesinə yaxşı stimul verə bilər", - deyə deputat bildirib. O əlavə edib ki, Azərbaycan açıq-aşkar Ermənistan və Türkiyə arasındakı münasibətlərin normallaşmasına və sərhədin açılmasına meylli deyil.

Ermənistan parlamentinin spikeri Alen Simonyan da eyni yalanı tirajlamışdı. Demişdi ki, "Biz Türkiyə ilə işləyirik və işləməyə davam edəcəyik. Təəssüf edirəm ki, Azərbaycan Ermənistan-Türkiyə sərhəd məsələlərinə, münasibətlərin normallaşmasına təsir etməyə çalışır. Bu, çox pisdir. Düşünürəm ki, Türkiyə rəsmiləri də bunu anlayırlar", - deyə Simonyan əlavə etmişdi. Erməni tərəfinin qondarma ərazi iddiası ittihamında məqsəd nədir? Ermənistan öz konstitusiyasındakı Azərbaycana qarşı torpaq iddiasını saxlamaq üçünmü bu cür "alibi" axtarır? Azərbaycan rəhbərliyi həqiqətənmi Türkiyə və Ermənistan arasında real normallaşmanın olmasında maraqlı deyil?

Yeri gəlmişkən, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevlə martın 5-də baş tutmuş görüşü barədə danışıb. Ərdoğan azərbaycanlı həmkarı ilə mühüm məsələlərdə müzakirələr apardığını bildirib. "Mən və qardaşım İlham Əliyev bir çox mühüm məsələlərdə, xüsusilə Ermənistanla sülh danışıqları barədə müzakirə apardıq", - bunu Ərdoğan Nazirlər Kabinetinin iclasından sonra açıqlamasında söyləyib. "Ermənistan Türkiyə ilə dialoqu davam etdirir və lazım olan bütün əməli addımları atır". Bunu isə martın 10-da Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Hindistan Dünya İşləri Şurasında bildirib. "Biz həmçinin iki ölkənin sərhədində yerləşən Ani körpüsünü birgə bərpa etmək barədə razılığa gəlmişik. Bu, birbaşa hava nəqliyyatının qurulması və hava nəqliyyatı ilə yük daşınması ilə bağlı artıq qəbul edilmiş qərarları tamamlayır. Biz eyni zamanda diplomatik pasportları olan şəxslər və üçüncü ölkələrin vətəndaşları üçün sərhədin açılması barədə razılaşmışıq", - Mirzoyan belə deyib.

Onu da əlavə edək ki, Ermənistan Türkiyə ilə sərhəddə yerləşən "Marqara" keçid məntəqəsinin inşasını başa çatdırıb. Bu haqda fevralın 27-də ərazi idarəetmə və infrastruktur naziri David Xudatyan brifinqdə deyib. Türkiyə ilə Ermənistan arasında sərhəd 1993-cü ildən bağlıdır. Ermənistan hökuməti 2021-ci ildə Türkiyə ilə münasibətləri normallaşdırmaq niyyətində olduğunu bildirib. Ankara və İrəvan bunun üçün xüsusi nümayəndələr təyin edib. 2023-cü ilin yanvarında Ankara birbaşa hava yüklərinin daşınmasına qoyulan qadağanın aradan qaldırıldığı barədə İrəvanı məlumatlandırıb. Həmin ilin martında isə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Türkiyə ilə sərhəd keçidinin üçüncü ölkə vətəndaşları və diplomatik pasport sahibləri üçün açılması barədə razılıq əldə olunduğunu bəyan edib. Son yaxınlaşmada baş nazir Nikol Paşinyan Ərdoğanın andiçmə mərasimində, XİN rəhbəri Mirzoyan isə Antalya Diplomatik Forumunda iştirak ediblər. Xatırladaq ki, Türkiyə ilə Ermənistan arasında normallaşma prosesi üzrə xüsusi nümayəndələr - səfir Serdar Kılıç və Ermənistan Milli Assambleyasının vitse-spikeri Ruben Rubinyan danışıqlar aparırlar.



**Siyasi ekspert Qədir Aslan bu detalları şərh edərkən "Yeni Müsavat"a bildirdi ki, rəsmi Ankaranın mövqeyi gizli deyil**: "Türkiyənin baxışı budur ki, Ermənistanla normallaşma prosesi Bakı ilə İrəvan arasındakı əlaqələrin həllindən asılıdır. Ankara xüsusən də Qarabağ məsələsinin yekun həllini tələb edir. Yəni Ermənistan qanunvericilik aktlarında ərazi iddialarına son qoymalıdır. Ona görə də Türkiyə 30 il əvvəldən başlayaraq bu iki məsələni bir-biri ilə əlaqələndirir və indiyə qədər eyni diplomatik xətti davam edir. Belə desək, burada sinxronluq var". Analitik qeyd etdi ki, hazırda bu iki mövzu düz mütənasibdir. Onun sözlərinə görə, yalnız 2008-ci ildə, məlum Sürix razılaşmaları istisnadır, qalan dövrlər ərzində sözügedən məsələlərin nizamlanması ilə bağlı Ankara-Bakı xəttində hər hansı dəyişiklik olmayıb: "Sadəcə, bir müddət sonra rəsmi sənədlərdə bu məsələləri ayırmaq lazım gələcək. Çünki Azərbaycanla Ermənistan arasındakı konflikt ticarət yollarının açılmasını tormozlaya bilmir. Qarabağ probleminin de-fakto həlli də göstərir ki, beynəlxalq ictimaiyyət belə tələb edir. Yəni blokadada olan nəqliyyat kommunikasiyalarının bərpasını istəyənlər hesab edirlər ki, Bakı və İrəvan yekun sülh sənədini imzalamağı bu mövzudan ayırmalıdır".

**Q.Aslanın həmkarı - siyasi təhlilçi Ramiyə Məmmədova isə vurğuladı ki, ermənilərin bu mövzuları məhz indi dövriyyəyə buraxması təsadüfi deyil:** "Prezident Əliyevlə cənab Ərdoğan İğdır-Naxçıvan qaz kəmərinin açılışını etməklə muxtar regionu mavi yanacaq blokadasından çıxarmış oldular. Ermənistan bundan narahatdır və arqumentləri tükənir. İrəvan anlayır ki, tərəflərin anlaşa bilmədiyi mövzu yoxdur. Amma ermənilər bu çıxışlarla aramıza nifaq sala bilməzlər. Bu açıqlamalarda təhrikedici elementlər var. Bununla Türkiyəni özlərinə çəkməyə çalışırlar. Sadəcə, olduqca dayaz spekulyasiyadır, Türkiyənin ağır və ağıllı siyasəti belə oyunlara getməz".

**Ekspert əlavə etdi ki, bəli, İrəvanın quru sərhədi açmaq üçün hər şeyə hazır olması da göz qabağındadır:** "2008-ci ildə bu prosesin yarısından qayıdıldı. İndi də inanmıram ki, Türkiyə Azərbaycansız addım atsın. Ermənistan məsələnin tezləşməsi üçün nələr etməli olduğunu yada salmalıdır. Bu da bəllidir hər iki dövlətə qarşı ərazi iddialarına son qoymalıdır. Ancaq deməliyəm ki, bu müddətdə Ankara ilə İrəvan normallaşma prosesində xeyli irəliləyə biliblər. Məncə, sərhədlərin açılması problem deyil, sadəcə, Ermənistan yola gələrək Zəngəzur dəhlizi ilə bağlı "daşı ətəyindən tökməlidir"".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

## AB müşahidəçiləri yenə sərhədimizdə

**Avropa Birliyinin (AB) Ermənistandakı Müşahidə Missiyasının üzvləri Azərbaycanla həmsərhəd ərazilərdə müşahidələrini davam etdirirlər. APA xəbər verir ki, AB müşahidəçiləri martın 10-da növbəti dəfə Qubadlı rayonu ilə həmsərhəd əraziyə gəlib, binoklla müşahidə aparıblar.**

Azərbaycan sərhədçiləri müşahidə missiyasının hərəkətlərini qeydə alıb.

Xatırladaq ki, AB-nin Ermənistandakı Müşahidə Missiyası mütəmadi olaraq Azərbaycanla sərhəd boyu müşahidələr aparır.

Aİ missiyasının rəhbəri və ona 2023-cü ildən rəhbərlik edən Markus Ritter işinin "çətin şərtlərindən" erməni jurnalistlərə şikayət edib.

"Azərbaycanlılar bizi nəinki öz tərəflərindən lentə alırlar, hətta bəzən qışqırırlar", - deyə Ritter gileylənib. Qeyd edək ki, AB-nin Ermənistanın Azərbaycanla sərhədindəki 200 nəfərlik müşahidə missiyasının mandatı 19 fevral 2027-ci ilədək uzadılıb.

## "Təyyarə qəzasında yardıma görə..."

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan Hava Yollarına məxsus təyyarənin Aktau yaxınlığında qəzaya uğramasından dərhal sonra göstərilən operativ yardıma görə Qazaxıstan dövlətinə və xalqına təşəkkür edib.**

"Report"un Qazaxıstan bürosu xəbər verir ki, bu barədə Azərbaycan XİN başçısı Qazaxıstan xarici işlər naziri ilə birgə mətbuat konfransında danışıb.

"Sərnişin təyyarəsinin Aktau yaxınlığında qəzaya uğramasından dərhal sonra aktarış-xilasetmə əməliyyatlarının həyata keçirilməsində yüksək operativlik göstərdiyinə və bütün məsələlərdə yaxından dəstək verdiyinə görə Qazaxıstan tərəfinə və bütün qazax xalqına təşəkkür edirəm", - o bildirib.

XİN başçısı əlavə edib ki, Azərbaycan və qazax xalqları arasında tarixən mövcud olan qardaşlıq, birgə adət-ənənə, mədəniyyət və dil ortaqlığı, dövlət başçıları arasında qarşılıqlı hörmət və etimada əsaslanan açıq və səmimi münasibətlər iki ölkə arasında əlaqələrin əsasını təşkil edir.

YENİ MÜSAVAT
N 46 (8656) 12 mart 2025

# Paşinyan üçün “Game over” zamanı

ABŞ-Rusiya dialoqunun bərpası Moskvanın gözünün çoxdankı düşməni olan hazırkı erməni iqtidarının canına vəlvələ salıb; Trampın İrana təzyiq niyyəti də İrəvanı çətin dilemma qarşısında qoymaqdadır...



**ABŞ-da hakimiyyətə qayıdan Donald Tramp və onun administrasiyasının atdığı gözlənilməz addımlar Birləşmiş Ştatların ən yaxın müttəfiqlərini, tərəfdaşlarını və hətta düşmənlərini hərəkətə gətirib. Cənubi Qafqaz regionu da geosiyasi qarşıdurmadan ciddi şəkildə təsirlənir, xüsusən burada Ermənistan ən həssas duruma malikdir. “Yeni Müsavat”ın xəbərinə görə, bu barədə Prressklub.az-ın təhlilində deyilir.**

Vurğulanır ki, Rusiya-Ukrayna müharibəsinin şərti olaraq birinci mərhələsində (Tramp dövrünə qədər) müttəfiqlərlə onların düşmənləri arasında manevr edərək yaxşı mənfəət qazanan Paşinyan hökuməti üçün indi şərtlər tamamilə dəyişib. Onun siyasi, iqtisadi, hərbi dayağı hesab olunan ABŞ-la Avropa İttifaqı arasında getdikcə dərinləşən uçurum yaranıb. Bunun əksinə, Birləşmiş Ştatlar Paşinyanı hakimiyyətdən qovmağa çalışan Rusiya ilə münasibətləri sürətlə bərpa edir.

Qeyd etmək yerinə düşər ki, ABŞ ötən 3 ildə Ermənistan hökumətinə nəhəng miqdarda maliyyə, iqtisadi, texnoloji və hərbi yardımlar göstərib. Şübhəsiz ki, bu sıraya Paşinyanın təhlükəsizliyi də daxil olmaqla, genişmiqyaslı kəşfiyyat mübadiləsi də daxildir. Dəyişən şərait isə Ermənistana bu məsələdə yaxşı heç nə vəd etmir. Paşinyan hökuməti üçün daha bir problem ABŞ-İran münasibətlərində müharibəyə yol alan istiqamətdir. Məlumdur ki, Birləşmiş Ştatlar regionda ən böyük səfirliyini İrəvanda saxlayır, burada yerləşdirilmiş personalın - kəşfiyyatçılar qrupunun əsas missiyası gecə-gündüz İranı izləmək, nəzarət altında saxlamaqdır. Tehranda ABŞ-la dialoq tərəfdarı olan qüvvələrin mövqeləri zəifləyir, vitse-prezident Məhəmməd Cavad Zərif istefa verib, prezident Məsud Pezeşkian isə dini liderin Vaşinqtonla sülh danışıqlarına qarşı olduğunu deyir. İranın mühafizəkar qanadının təsiri altında olan dövlət televiziyasının İrəvanda Nikol Paşinyandan geniş müsahibəsi yayılıb. Sualların əhəmiyyətli hissəsi Qərbin İrana müdaxiləsi fonunda Ermənistanın hansı mövqeyi tutacağı barədə olub ki, bunun da səbəbləri bəllidir.

Yaxın perspektivdə həmçinin Ermənistan hakimiyyətinin Tramp administrasiyasının güclü dəstəyindən ruhlanan Rusiya ilə ciddi problemləri gözlənilir. 44 günlük müharibədən sonra Paşinyanın Rusiyadan uzaqlaşmaq, Qərbə inteqrasiya xətti seçməsi Kremldə möhkəm qəzəb yaradıb. İlk fürsətdə Ermənistan hakimiyyəti ilə haqq-hesab çürüdüləcəyi istisna deyil. Əvvəlki qüvvələr nisbətinin pozulması isə Ermənistanın yenidən qeyri-sabitlik mərhələsinə daxil olması deməkdir. Yekunda qeyd edilir ki, geosiyasi turbulensiya dövründə Paşinyan gözə görünməməyə çalışır. Onun diplomatik trafiki, bəyanatları xeyli səngiyib, indi o, həyəcanla kənardan gələn səsləri dinləməklə məşğuldur. Görünür ki, “Game over” - (oyun bitdi - E.S.) zamanı gəldiyini düşünür. Elə bu xüsusda Paşinyanda Ağ Evdəki Oval kabinetdə qalmaqalla yekunlaşan Tramp-Zelenski görüşü barədə soruşulub. O isə danışmaq istəməyərək, “məsələ bizlik deyil” söyləməklə kifayətlənib. Yəni Nikol ehtiyatlıdır və hələ də Cənubi Qafqaz siyasətinin nə olacağı bilinməyən Tramp haqda susmağa üstünlük verir.

“Yeni Müsavat”a hazırkı geosiyasi dəyişikliyi şərh edən **professor Qabil Hüseynlinin** sözlərinə görə, Ermənistan ötən ilin sonunda imzalanmış xartiyaya hələ də ümid bəsləyir. Onun fikrincə, Paşinyanı xilas etsə-etsə, elə həmin sənəd sığortalaya bilər. Bununla belə, müsahibimiz hesab edir ki, rəsmi İrəvan hazırkı Amerika hakimiyyətindən əlini üzüb və gözləmə mövqeyindədir: “Deməzdim ki, Respublikaçılar Paşinyanın rusun caynağına keçməsinə imkan yaradacaqlar. Açığı, Zelenskiyə arxa çevrilməsindən sonra bunu da söyləməyə tərəddüd edirəm. Amma bütün hallarda, söhbət Ermənistandan gedir. Yəni amerikalılar regionda bu ölkənin Rusiyanın satelliti olduğunu dəyərləndirə bildikləri üçün onun peykinə qayıtmasını istəməzlər. Ona da razı olmazlar ki, Rusiya bölgədə təsir gücünü əvvəlki səviyyədə bərpa etsin. Nəzərə alaq ki, bu məsələdə Türkiyə böyük faktdır. Ankara da İrəvanı Moskvadan uzaq tutmaqda maraqlıdır. Ən əsası isə Paşinyanın son ümid ocağı Makrondur. Əgər Tramp Amerikası onu Bayden dövründə olduğu qədər dəstəkləməsə, bu 4 ildə Fransanın kompensasiya edəcəyinə bel bağlayıb”. **Q.Hüseynli təsdiqləyir ki, həqiqətən də Ermənistan üçün çətin olacaq və Rusiyanın təzyiqləri arta bilər:** “İntəhası, Paşinyan hiyləgər adamdır. Onun sanksiyaları dəlməkdə Rusiyaya böyük "ayı xidməti" göz qabağındadır. Gəlin unutmayaq ki, Rusiya-Ermənistan əlaqələri ikiüzlüdür. Tərəflər ticarət dövriyyəsini artırır, təhlükəsizlik və siyasi mövzularda qarşıdurma vəziyyətinə gəlirlər. Burada səmimiyyət görmürəm. Əgər razılaşma əsasında Ermənistanın İran və Türkiyə sərhədindən rus hərbçiləri çıxarılıbsa, deməli, Moskva ilə İrəvan mnasibətlərində latent məsələlər var. Kim bilir, bəlkə də Paşinyan Tramp-Putin yaxınlaşmasından istifadə edə biləcəyinə, Bakıya təzyiq göstərləcəyinə ümid edir".

**Hərbi ekspert Ramil Məmmədli** isə Ermənistanın hələ də keçən ilin 5 aprelində baş tutan Brüssel görüşündən faydalandığını görməkdədir. Onun sözlərinə görə, həmin toplantıda hərbi pakt imzalandığı elan edilməsə də, sonrakı addımlar bu razılaşmanın icra olunduğunu ehtiva etməkdədir. Hərbi analitikə görə, Ermənistan indi amerikalı sərhədçiləri və ABŞ-dən yeni gecəgörmə cihazları, müxtəlif avadanlıqların tədarükünü gözləməkdədir: “Eyni zamanda Avropa Sülh Fondu daha 10 milyon avro ayırır. Bu addımlar Ermənistanın təhlükəsizlik sahəsində yeni tərəfdaşlar tapdığını sübut edir. Fakt budur ki, İrəvan KTMT-yə qayıtmır. Bundan sonra Trampla Rusiyanın yaxınlaşmasının bu prosesə necə təsir edəcəyini söyləmək çox çətindir. Burada vahid baxış var - Ermənistanı Qərbə tərəf çəkmək. Əgər Avropa Birliyi ilə ABŞ-ın mövqeyində dəyişiklik olacaqsa, Paşinyan Amerikadakı yeni seçkilərə qədər var-gəl etməyə, Rusiyanın təzyiqlərindən özünü qorumağa çalışacaq”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**



## Azərbaycan BMT-də minalarla bağlı bəyanat yaydı

**Azərbaycan mina çirklənməsinin fiziki məhdudiyyətli insanlara təsiri ilə bağlı narahatlığını ifadə edib. Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının 58-ci sessiyasında Azərbaycanın daimi missiyası bəyanat təqdim edib. Azərbaycan həmçinin öz ərazisində mina çirklənməsinin yüksək səviyyəsi ilə bağlı narahatlığını ifadə edib, əhalinin böyük bir hissəsinin keçmiş işğal olunmuş ərazilərdə erməni qüvvələri tərəfindən yerləşdirilmiş minalardan əziyyət çəkdiyini vurğulayıb.**

“Mina çirklənməsi və Ermənistanın dəqiq mina sahələri xəritələrini təqdim etməkdən imtina etməsi qadınlar və uşaqlar da daxil olmaqla, insanların həyatını almağa və şikəst etməyə davam edir”, - iclasda oxunmuş bəyanatda deyilib.

Rəsmi Bakı beynəlxalq ictimaiyyəti bu ərazilərin minalardan təmizlənməsində dəstək göstərməyə çağırıb və xüsusi məruzəçidən mina qurbanları probleminə diqqət yetirməsini xahiş edib.




## “Cənubi Qafqaz yenə Moskvanın təsir dairəsində qalacaq”

**“İndi yaradılan yeni dünya nizamı təbiətcə çoxqütblü və iyerarxik olacaq. İndi baş verənlər reallığı ifadə edən hadisədir”. Bu sözləri türkoloq Ruben Safrastyan erməni mediasına geniş müsahibəsində deyib. (Axar.az)**

Onun sözlərinə görə, dünyadakı nüvə silahlarının 90%-i ABŞ və Rusiyanın əlindədir və yeni dünya nizamında bu iki dövlət iyerarxiyanın zirvəsində dayanacaq: “ABŞ və Rusiya bir-birini məhv etməkdənsə, əməkdaşlığın daha yaxşı olduğunu düşünür. Hərbi baxımdan Rusiya və ABŞ-dan geridə olsa da, iqtisadi cəhətdən güclü ölkə olan Çin faktorunu da unutmaq olmaz. Bu üçü dünyanı bölərək”.

Safrastyanın fikrincə, yeni dünya düzənində Cənubi Qafqaz Rusiyanın ümumi təsir dairəsində qalacaq: “Cənubi Qafqazda Türkiyə faktorunun güclənməsi reallıqdır və düşünürəm ki, ABŞ da bununla razılaşacaq. Türkiyə Yaxın Şərqdə böyük bir oyuna başladı və To oyundan daha çox faydalanmağa çalışır, resurslarının böyük hissəsini də Yaxın Şərqə yönəldib. Buna görə də Ankara status-kvonu saxlayacaq və Cənubi Qafqazda çox fəallıq göstərməyəcək. Təbii ki, Türkiyənin son məqsədi Cənubi Qafqazı Türkiyənin təsir dairəsinə çevirməkdir, lakin indi bu, baş verməyəcək. İrana gəlincə, hazırda ciddi daxili problemləri olduğu üçün Cənubi Qafqazda aktiv olmayacaq”.

# Bakıda yeni dünya düzəninin müzakirəsi başlayır

## Azərbaycan paytaxtı daha bir beynəlxalq tədbirə ev sahibliyi edəcək

**Martın 13-15-də paytaxtımızda XII Qlobal Bakı Forumu keçiriləcək. Məlumat üçün bildirək ki, forum "Dünya düzəninin yenidən düşünülməsi: çağırışların fürsətə çevrilməsi" ("Rethınkıng World Order: Turnıng Challenges Into Opportunıtıes") mövzusunda keçiriləcək.**

Tədbirdə hazırkı və keçmiş dövlət və hökumət başçıları, Nobel mükafatı laureatları, beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyətləri də daxil olmaqla, 400-dən çox nümayəndənin iştirakı gözlənilir. Forumda həmçinin Albaniya Prezidenti Bayram Beqay, Şimali Makedoniya Prezidenti Qordana Silyanovska-Davkova və Monteneqro Prezidenti Yakov Milatoviç də iştirak edəcəklər.

Qeyd edək ki, forumda Kuala-Lumpurun meri Maimuna Mohd Şərif və BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anhel Moratinos və BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) Baş katibi Rebeka Qrinspanın iştirakı da təsdiqlənib.

**Milli Məclisin deputatı Azər Badamov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Bakıda keçirilən Qlobal Bakı Forumu dünya gündəmi üçün əhəmiyyət daşıyan beynəlxalq platformaya çevrilib: "13-15 mart tarixlərində keçiriləcək XII Qlobal Bakı Forumuna da beynəlxalq səviyyədə maraq çox böyükdür. Foruma indiki və keçmiş prezidentlər, hökumət rəhbərləri, siyasətçilər, Nobel mükafatı laureatları, beyin mərkəzlərinin nümayəndələri olmaqla 400-dən çox iştirakçı qatılır. Həm də BMT və digər beynəlxalq təşkilatların nümayəndələrinin foruma qatılması onun əhəmiyyətinin nə qədər yüksək olduğunu göstərir. Bu forumun mövzusu dünya düzəninin yenidən düşünülməsi, çağırışların fürsətə çevrilməsi ilə bağlıdır. Bu gün həqiqətən dünya nizamı heç olmadığı qədər çətin dövrünü yaşayır. Baş verən müharibələr və müharibələrin davam olmasına maraqların toqquşması, birləşmiş Qərbin daxilində yaranmış fikir ayrılıqları, o cümlədən qlobal miqrasiyanın yaratdığı çətinliklər və s. qlobal gündəliyin əsas mövzularına çevrilib. Bu gün dünya özünün daha təhlükəsiz və ədalətli nizamının formalaşdırılmasına çalışmalıdır. Əks halda, bəşər tarixinin sonu gələ bilər. Bu baxımdan XII Qlobal Bakı Forumu qlobal gündəliyi narahat edən məsələlərin müzakirə olunduğu nadir platformadır. Bu gün həm də dünyanı bir araya yığaraq qlobal məsələlərdə dialoqa nail olunması üçün müzakirələrin aparıldığı ikinci bir məkan yoxdur. Çünki dünya parçalanıb və demək olar ki, güclü ölkələr zəiflər üzərində hakimiyyəti ələ almağa çalışır. Heç kim dialoqdan, sülhdən, birgə yaşayışdan və əməkdaşlıqdan danışmaq üçün bir platforma yaratmır. Azərbaycan isə artıq 12-ci dəfə bu platformanı qlobal müzakirələrə təqdim edir. Bu həm də ölkəmizin sülh və ədaləti dəstəkləyən niyyət və məqsədlərinin göstəricisidir. Azərbaycan bütün sivilizasiyaların birgə və sülh içində, beynəlxalq hüquqa hörmətlə yaşamasına çağırış edir. Bu, həm də Azərbaycanı dünyaya təqdim etmək üçün bir platformadır. Biz forum çərçivəsində ölkəmizin məqsədlərini və baxışlarını da bölüşə bilirik. Bu həm də ölkəmizə qarşı qarayaxma kampaniyaları, ikili standart siyasəti aparanların istəklərini ifşa etmək üçün bir platformadır. Beləliklə, XII Qlobal Bakı Forumunun həm qlobal məsələləri müzakirə etmək, həm də sözümüzü beynəlxalq arenaya çatdırmaq baxımından bir fürsət olduğunu hesab edirəm".



**Siyasi təhlilçi Sona Əliyeva bu tədbirin əhəmiyyətini olduqca böyük sayır:** "Artıq yeni dünya modeli, yeni qlobal dünyanın əsas çağırışları istiqamətində son on ildə aparıcı beyin mərkəzləri öz modellərini ortaya qoyurlar. Hesabatlar, baxış bucaqları müxtəlif elmi-siyasi və iqtisadi dərgilərdə öz əksini tapır. Azərbaycan da yeni dünya düzənində öz fikri və yanaşması olan aparıcı dövlətlərdəndir. Cənab Prezident də dəfələrlə çıxışlarında bildirib ki, BMT-də ciddi islahatlara ehtiyac var. Yeni ötən əsrin qırxıncı illərində qurulmuş təşkilat yeni dünya çağırışlarına cavab vermir. Yeni dünya modeli əslində qütblər və ya çoxqütblülük platformasına söykənir. Hər bir dövlət seçim etdiyi qütbdə yer alaraq mövcudluğunu qorumaq məcburiyyətindədir. Böyük dövlətlər qütb kimi çıxış edirlər. Burada məsələ kiçik dövlətlərin üzləşdiyi problemlərdir. Azərbaycan özünü Türk Birliyi çətiri altında görür. Çünki TDT-nin yeni qütb olmaq yolunda atdığı addımlar göz önündədir və Türk Birliyinin aparıcı ölkələrindən biri də məhz Azərbaycandır. Balkanlardakı və regionumuzdakı kiçik ölkələr də özlərinə yeni çətir arayışındadır. Onlar da prioritet arayışındadır. Bu baxımdan, Bakıda keçiriləcək forumun əhəmiyyəti çox böyükdür. Dəvət olunan ölkələrin rəhbərlərinə bu konfrans seçim etməkdə böyük kömək olacaq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Putinin spikeri təltifinin doğurduğu reaksiya

## Rusiya liderinin Milli Məclis sədrini "Dostluq" ordeni ilə təltif etməsinin səbəbləri...

**Mülki təyyarəmizin vurulmasından sonrakı bir aydan artıq müddətdə Rusiya-Azərbaycan münasibətlərində soyuqluq qismən yerini müsbət tendensiyaya verməkdədir. Son günlər bu istiqamətdə baş vermiş müsbət hadisələrdən biri Rusiyanın "Alfa Sığorta" şirkətinin təyyarə qəzası ilə bağlı sığorta ödənişlərini tam şəkildə həyata keçirməsini xatırlamaq olar.**



Bildirilib ki, şirkət həmçinin sərnişinlərə də dəyən zərərə görə ödənişləri həyata keçirməyə başlayıb. Bu arada Moskvada Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin abidəsinin qoyulacağı ilə bağlı Moskva hökumətinin hərəkətə keçməsi də diqqət çəkməyə bilməz. Abidə Azərbaycanın Moskvadakı səfirliyinin yaxınlığındakı bağda yerləşəcək. "Yeni Müsavat" qeyd edir ki, təntənəli mərasimdə Rusiya yüksək səviyyədə təmsil olunub: Moskva meri Sergey Sobyanin, Rusiya baş nazirinin müavini Vitali Savelyev tədbirdə iştirak və çıxış ediblər. O da faktdır ki, Rusiyanın mərkəzi telekanalları və rəsmi agentlikləri bu mövzuya xüsusi diqqət ayırıblar.

Rusiya Prezidenti Vladimir Putin isə iki gün əvvəl Milli Məclisin sədri Sahibə Qafarovanı "Dostluq" ordeni ilə təltif edib. Rusiya liderinin fərmanı hüquqi informasiya portalında dərc olunub. Fərmanda Sahibə Qafarovanın Rusiya-Azərbaycan əlaqələrinin möhkəmləndirilməsindəki xidmətlərinə görə təltif olunduğu qeyd edilib.

Axar.az xəbər verir ki, bunu rusiyalı **politoloq Sergey Markov** "Moskva-Bakı"ya müsahibəsində deyib.

"Qənaətə gəlinib ki, gərginliyin inkişafına imkan verməməli, bağlı qapılar arxasında vəziyyəti ciddi nəzarətə götürməlidirlər. Bu qərar ona görə verilib ki, eskalasiya yalnız bizə ziyan vurur. Üstəlik, açıq-aydın görünür ki, kənar oyunçular çətinliklərimizdən istifadə edərək bizi daha ciddi münaqişəyə aparmağa çalışırlar. Bununla maraqlananlar kifayət qədərdir. Bu şəraitdə Moskva və Bakı qərara gəldi ki, problemlər qalmaqdadır, onların həlli üçün ciddi səylər, ciddi ikitərəfli iş tələb olunur, lakin emosiyaları və mənfi meylləri boğmaq daha yaxşıdır. Axı həm Moskva, həm də Bakıya aydındır ki, mübahisə ölkələrimizi yalnız zəiflədir, zərər verir. Strateji tərəfdaş olaraq qalmaqda davam edirik və bütün ikitərəfli, eləcə də çoxtərəfli əməkdaşlıq layihələri həm Rusiya, həm də Azərbaycan üçün vacibdir", - o bildirib.

Yada salaq ki, Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenkonun Novruz bayramı ərəfəsi Azərbaycana səfər edəcəyi gözlənilir. O, məlum qəzadan sonra Azərbaycana səfər edəcək ən yüksək vəzifəli şəxs olacaq. Məlumata görə, Rusiya parlamentinin yuxarı palatasının sədri, ölkənin siyasi iyerarxiyasında təmsil olunan Matviyenko Bakıda Azərbaycan və Rusiya arasında ikitərəfli münasibətlərin inkişafı ilə bağlı müzakirələr aparacaq. Matviyenko Rusiyanın təcrübəli dövlət xadimlərindən biridir, 2011-ci ildən də Rusiya Federasiya Şurasının sədridir. Matviyenkonun Azərbaycanla münasibətləri hər zaman normal olub və güman ki, onun gözlənilən səfəri də münasibətlərdəki soyuqluğu aradan qaldırmağa kömək olacaq.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 46 (8656) 12 mart 2025

# "Napoleonun ölkəsi"nin Azərbaycana məğlubiyyət etirafı

## Rəsmi Paris davamlı şərləmə mövqeyi ilə "Fransaya xarici müdaxilə" qarşısında acizliyini də etiraf etmiş olur

**Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə Fransanın dənizaşırı ərazilər naziri Manuel Valsın "BFMTV"yə müsahibəsi zamanı Azərbaycan əleyhinə səsləndirdiyi əsassız iddiaları cavablandırması barədə ötən sayımızda məlumat vermişdik.**

Yada salaq ki, A.Hacızadə Fransanın dənizaşırı ərazilər naziri Manuel Vallsın "BFMTV"yə müsahibəsi zamanı növbəti dəfə Azərbaycanı Fransaya qarşı guya hibrid müharibə aparmaqda, habelə dənizaşırı ərazilərdə müstəqillik tərəfdarlarını dəstəkləməklə Fransaya xarici müdaxilədə günahlandırmasını şərh edib.

O qeyd edib ki, Fransa tərəfinin dənizaşırı ərazilərdəki uğursuz siyasətini, kolonializm keçmişini davam etdirmək səylərini ört-basdır etmək üçün Azərbaycanı ittiham edərək, təkrar-təkrar səsləndirdiyi əsassız iddiaları qətiyyətlə rədd edirlər: "Fransanın kolonial siyasətini təbliğ edən və bu ölkənin "3 okean və 5 qitədə" mövcud olduğunu iddia edən Manuel Vallsın Azərbaycana qarşı növbəti dəfə səsləndirdiyi cəfəng iddialar Fransanın həmin xalqlar arasında dayaqlarını itirməsi ilə barışmadığının növbəti təzahüründən başqa bir şey deyil.

Ölkəsini "nadir güc" kimi qələmə verən nazir Manuel Valls səsləndirdiyi ziddiyyətli fikirlərin Fransanın dənizaşırı ərazilərində baş verən zorakılıq aktları, müstəqillik tələb edən xalqların hərəkatlarının boğulması faktları qarşısında nə qədər zəif arqumentlər olduğunu özü də etiraf edir. Nazir Manuel Vallsın fikirləri, Fransanın öz "strateji maraqları" müzakirə mövzusu olduqda fikir azadlığı, müstəqillik kimi anlayışları da qurban verməyə hazır olduğunu nümayiş etdirməsi, əslində bu ölkənin ikili standart yanaşmasından xəbər verir. Fransa tərəfindən bu kimi iddialar səsləndirməklə ölkəmizə qarşı apardığı əsassız qarayaxma kampaniyasını dayandırmağı tələb edirik".

Göründüyü kimi, Fransa öz yarıtmaz siyasətini ört-basdır etməkdə davam edir, bunun üçün isə kolonial səhvlərindən nəticə çıxarmaq əvəzinə Bakıya əsassız ittihamlar irəli sürür. Rəsmi Paris həm də bu davamlı şərləmə mövqeyi ilə "Napoleon ölkəsi"nin guya "dənizaşırı ərazilərdə müstəqillik tərəfdarlarını dəstəkləyən və Fransaya xarici müdaxilə edən Bakının" qarşısında acizliyini də etiraf etmiş olur.

**Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədr müavini Günay Ağamalı "Yeni Müsavat"a bu barədə müsahibəsində Azərbaycanın Fransanın daxili işlərinə heç zaman qarışmadığını diqqətə çatdırdı:** "Fransanın anti-Azərbaycan siyasəti islamofobiya, ksenofobiya və erməni lobbisinin təsiri əsasında formalaşıb. 44 günlük Vətən müharibəsindən sonra rəsmi Paris fəal şəkildə ölkəmiz əleyhinə qarayaxma kampaniyası həyata keçirir. Beynəlxalq müstəvidə uğursuzluğa düçar olan Makron administrasiyası ölkə ictimaiyyətinin diqqətini yayındırmaq üçün hədəf dəyişdirmək cəhdləri edir.

Fransanın dənizaşırı ərazilər üzrə naziri Manuel Vallsın Azərbaycan əleyhinə səsləndirdiyi əsassız iddialar növbəti ikili standartlar nümunəsidir və ölkəsinin geopolitik səriştəsizliyinin göstəricisidir. Yelisey Sarayından fərqli olaraq Azərbaycan Fransanın daxili işlərinə müdaxilə etmir. Lakin onların davam etdirdiyi neokolonializm siyasətinə qarşı qəti və prinsipial mövqe sərgiləyir. Çünki Fransanın kolonial siyasəti hər zaman sosial strukturların pozulmasına, irqi ayrı-seçkiliyə, yerli xalqların dini və mədəni irsinin məhv olmasına səbəb olub. Rəsmi Paris kölələşdirdiyi xalqların təbii resurslarını və iqtisadi potensialını istismar edir, onların inkişafının qarşısını alır. Fransızlar dekolinizasiya prosesinə baxmayaraq imperialist maraqlarını fərqli müstəvidə davam etdirirlər. Bu isə demokratik dəyərlərin məhvinə və insan haqlarının kobud şəkildə pozulmasına gətirib çıxarır. Azərbaycan Bakı Təşəbbüs Qrupu və Qoşulmama Hərəkatı çərçivəsində Fransanın müstəmləkə siyasətinə qarşı ciddi səylə mübarizə aparır. Artıq fransızlar Afrikada istənilməyən qonaq qismindədir. Yaşadıqları uğursuzluqları kompensasiya etmək istəyən Emmanuel Makron isə Cənubi Qafqaza nüfuz etmək cəhdləri edir və Ermənistandan platsdarm kimi yararlanır. Azərbaycan onların regionda nüfuz sahibi olmaq ambisiyalarını neytrallaşdırır".

**Ədalət, Hüquq və Demokratiya Partiyası sədrinin müavini, politoloq Niyaməddin Orduxanlı Fransaya Azərbaycan tərəfindən tam adekvat münasibət sərgiləndiyini söylədi:** "Çox təəssüf ki, artıq dünyanın bir sıra güclü dövlətləri heç bir beynəlxalq hüquq norması tanımır. İstədiyi addımı atır. Fransa da bu cür dövlətlərdən biridir. Azərbaycana qarşı hər cür böhtanlar, qarayaxma kampaniyaları təşkil edir. Əlbəttə ki, Fransanın Azərbaycana qarşı qərəzli mövqeyinin əsasında Ermənistanı dəstəkləməsi faktı və Fransada mövcud olan 100 illik güclü erməni lobbiçiliyi və diasporası durur. Məlumat üçün deyim ki, dünyada ermənilərin ən güclü lobbiçiləri sırasında birinci yerdə Fransa, ikinci yerdə Amerika durur. Fransanın dənizaşırı ərazilər naziri Manuel Valis həyasızcasına Azərbaycana qarşı böhtan atır. Azərbaycan nə etsin ki, Fransa keçmişdə də, indiki dövrdə də müstəmləkəçilik həyata keçirir, zəif xalqları və gücsüz dövlətləri işğal etmək, təcavüzə məruz qoymaq, əzmək və bir sıra dövlətlərin təbii sərvətlərini ələ keçirmək, mənimsəmək siyasətini aparır. Fransa yaxın tarixdə xalqlara qarşı soyqırımı aktları da həyata keçirib. Təkcə Əlcəzairdə bir milyondan artıq insan qətlə yetirib. Fransa öz keçmişindən utanmaq əvəzinə, Azərbaycana qarşı əsassız ittihamlar irəli sürür. Azərbaycan xalqı Fransanın bizə qarşı necə nifrət bəslədiyini çox yaxşı bilir. Münasibətlərimizin bu vəziyyətə gəlməsinin kökündə, əlbəttə, Fransa dövlətinin Azərbaycana qarşı olan qərəzli münasibəti durur. Təbii ki, biz düşmən olanla dost ola bilmərik. Münasibətlər qarşılıqlı olmalıdır. Fransaya bugünkü Azərbaycanın münasibəti adekvatdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**






## Eks-prezident hava limanında yaxalandı

**Filippinin keçmiş prezidenti Rodriqo Duterte insanlığa qarşı cinayətdə ittiham olunaraq həbs edilib. Bu barədə rəsmi sənədlərə istinadla "Manila Bulletin"in məlumat yayıb. Filippin Prezident Ofisi bildirib ki, martın 11-də səhər Honq-Konqdan gələn Duterte Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) orderi əsasında Manila hava limanına endikdən sonra saxlanılıb. Həbs orderinin rəsmi surəti İnterpol Manila tərəfindən alınıb.**

Beynəlxalq Cinayət Məhkəməsi 79 yaşlı Rodriqo Duterte və başqalarını narkotik kartellərinə qarşı mübarizədə məhkəməsiz qətllər və digər insan haqları pozuntuları ittihamı ilə araşdırır.

Filippin hüquq müdafiəçiləri prezidenti ölkədə 6 mindən çox insanın məhkəməsiz qətllər nəticəsində ölümünə səbəb olmaqda ittiham edirlər. Siyasətçi dəfələrlə açıq şəkildə narkotik alverçilərinə və narkomanlara qarşı fiziki zorakılığa çağırış edib və 3 narkotik alverçisini şəxsən öldürdüyünü bildirib.

Rodriqo Duterte 2016-2022-ci illərdə Filippinin prezidenti olub. Onun qızı Sara Duterte-Karpio hazırda vitse-prezident vəzifəsini icra edir və fevral ayında impiçment elan edilib. Dövlət başçısı Ferdinand Markos Sr və seçkilərdən sonra Duterte-Carpio ilə siyasi mövqeləri ayrılıb.

Prezident Rodriqo Dutertenin dövründə Filippin Beynəlxalq Cinayət Məhkəməsini təsis edən Roma Statutundan çıxıb.

YENİ MÜSAVAT
N 46 (8656) 12 mart 2025



# Arayikgil və yeraltı sular

Zamin HACI
zaminhaci@gmail.com

**Bir filoloji müşahidəmi oxucularla bölüşmək istəyirəm: Qarabağda ələ keçirilən, erməni milliyyətindən olan separatçıların Bakıda məhkəməsi gedir və milli jurnalistikamız bu prosesə ad qoymaqda çətinlik çəkir. Məsələn, son 1 həftədə fərqli-fərqli saytlarda, informasiya resurslarında rastlaşdığım ən azı 2 reportaj başlığını sizinlə bölüşürəm: "Vardanyangilin təcridxanadan fotoları", "Arayikgilin məhkəməsində etiraflar".**

Amma bunlar təsadüfi başlıqlar deyil. Google daha əcaib mənzərəni önümüzə çıxarır. İnanmırsınızsa, "Arayikgil" yazıb axtarışa verin. "Araikgil Bakıda qalacaq", "Arayikgil məhkəmədə Paşinyanın yalanını üzə çıxardı", "Arayikgil ailələri ilə danışdı" və sairə.

Tragikomik durumdur. Çünki bizim ana dilimizdə "gil" şəkilçisi nəsil, soykök bildirən milli sonluqdur və yanılmıramsa, yalnız bizə məxsusdur. Necə ermənilərdə "yan", gürcülərdə "dze", ruslarda "ov" var. Yeni soyad inqilabı etmək istəsək biz bu "gil" şəkilçisini gözəl şəkildə istifadə edə bilərik, məsələn, Hüseynov olar Hüseyngil, Əliyev olar Əliyevgil və sairə. Onsuz bizdə el arasında nəsilləri, soy ağaclarını elə bu cür də adlandırıblar. "Kimlərdənsən" sualına "Filankəsgillərdən" deyiblər.

Bu baxımdan, erməni separatçılarına "gil" suffiksi yapışdırmaqla onları sanki doğmalaşdırır, əzizləyirik. Yanlış anlaşılmasın, mən "daha belə yazılmasın" demirəm. Sadəcə, müşahidəmi bölüşmək istədim. Dedim bəlkə kiməsə maraqlı olar.

Maraqlı işlərimiz isə çoxdur. Yazdıqca qurtarmır. Dünən mən memarlıq və inşaat üzrə əsas ali məktəbimizin rektorunun intervüsünə rast gəldim və onu oxumağa başlamamış gülməyim tutdu. Nəyə görə? Çünki rektorun kabinetində, müsahibə verərkən arxada yerləşən qurma kitab rəfini gördüm. O rəfi kim düzəldibsə, yüz faiz həmin universitetin məzunudur, çünki rəfdə dizayndan, yaraşıqdan əsər-əlamət yox idi. Əgər əsas memar və inşaat universitetimizin başçısında zövq budursa, başqalarından nə umasan? Bəlkə həm də buna görə müstəqillik dövründə memarlıq və inşaatı ilə zövq oxşayan, ürək açan, "bu, Azərbaycana məxsusdur!" deyə biləcəyimiz 1 dənə də abırlı bina yoxdur?

Yaramın közünü qoparmışkən... Bir-iki ay qabaq bir tanışla söhbətləşirdik, mövzu harfdansa fırlandı, gəldi Bakının şimal çıxışında tikilən göydələnlər kompleksinin üstünə. Köhnə sakinlərin bəlkə yadında olar, sovet vaxtı orfda mehmanxana tikilirdi, hətta skeleti də hazırlanmışdı, lakin SSRİ dağıldı, o konstruksiyanı da söküdülər və yerində indi beş-altı mənasız, standart "yeşik-binalar" qoyulub. Nəsə, tanış dedi ki, həmin binalarda evlər çox ucuzdur. Guya binaların altından su çıxırmış, hamı satıb gedir və sairə.

Nə dərəcədə düzgün söhbət idi, ya şayiə idi - xəbərim yoxdur. Ancaq mövzunun dalıyca tanışım elə bir "texniki əsaslandırma" apardı ki, əlim üzümdə qaldı. Deyir, oradan ona görə su çıxır ki, həmin binaların altından... çay axır. Yeraltı çay. Birbaşa. Bəs o çayı tanışım harada görüb, bu haqda sualıma aldığım cavab isə məncə şedevrdir: "Axı Yer düzdür, suyun üstündədir, həmin sulardır".

Əvvəlcə elə bildim mənimlə məzələnir, nəsə pis zarafat eləmək qərarına gəlib. Sonra gördüm, yox, ciddidir. Hətta dünyanın kürə şəklində deyil, yastı olması haqda mübahisəyə girişdi, bunu da belə əsaslandırdı: "Əgər Yer kürə şəklində olsa çayların heç biri üzü aşağı axmazdı".

Ən faciəvisi isə odur ki, bu yoldaşın Texniki Universitetimizi bitirdiyini bilirdim. Düzdür, deyəsən, sovet dövründə. Ancaq ora çoxmu dəyişib? İnanmıram.

Hərçənd indi kimlərsə gəlib deyər ki, ona qalsa mikrobların xəstəlik törətdiyinə inanmayan adamı ABŞ-da səhiyyə naziri qoyublar, buna nə sözün, o zaman mənim susmaqdan başqa çarəm olmaz.



# ABŞ-la Azərbaycanın mümkün tərəfdaşlıq sazişi

## Ekspert: "Trampın yenidən prezident seçilməsi Azərbaycan-ABŞ əlaqələrinin keyfiyyətcə yeni mərhələyə keçməsinə təkan verə bilər"

**Rəsmi Bakı Ağ Evdəki hakimiyyət dəyişikliyindən sonra ABŞ-la strateji tərəfdaşlıq sazişi imzalamağın mümkünlüyü haqda mövqe ifadə edib. Bir faktı yada salaq ki, Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndə Vaşinqton Türkiyə, Pakistan, Rumıniya və İsveçrədən sonra olsa da, Moskvadan iki ay əvvəl - 1992-ci il yanvarın 23-də bu qərarı rəsmən tanımışdır. İki ölkə arasında münasibətlərdə ziqzaqlar olsa da, Bayden iqtidarı Azərbaycana qarşı açıq-açığına ədalətsiz mövqe sergilədi. Tramp administrasiyasının gündəmi indi fərqlidir, amma Azərbaycan-ABŞ münasibətlərinə diqqət azalmayıb.**

**Deputat, Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyasının sədri Qüdrət Həsənquliyev** Xalqcəbhəsi.az-a müsahibəsində iki ölkə arasında münasibətlərin bundan sonrakı inkişafı ilə bağlı danışıb. Deputat "ABŞ-la əməkdaşlıq etməli, amma onunla nə dost, nə də düşmən olmamalıyıq" mövqeyinə belə aydınlıq gətirib: "Son 10 illiklər ərzində ABŞ cəmiyyəti tam olaraq ikiyə parçalanıb.Tramp administrasiyası özündən öncəki administrasiyanın ABŞ dövləti adından imzaladığı sənədləri, müqavilələri tanımır. Sanki administrasiyalar ayrı-ayrı dövlətlərdir. Zelenski nümunəsi gözümüz önündədir. O, Baydenlə 2024-cü ilin iyununda təhlükəsizliyə dair 10 illik saziş imzalamışdı. Amma bu gün Tramp onu aşağılayır və kapitulyasiyaya məcbur edir. Biz Trampla dostluq etsək, sabah başqa bir ABŞ prezidenti də onunla saziş imzaladığımıza görə bizi incidəcək. ABŞ siyasi sistemində qütbləşməyə son qoyulmayana, beynəlxalq hüquqa və öhdəliklərə ciddi əməl olunmayana, siyasi sistemdə islahatlar aparılmayana qədər bu ölkə ilə müəyyən məsafə saxlamalıyıq".

**Partiya sədri ABŞ-dakı səfirin Azərbaycanın strateji müttəfiqlik sazişi imzalamağa hazır olduğu barədə dediklərinə belə münasibət bildirib:** "Açıqlama verməmişdən öncə diplomatik kanallarla ABŞ-ın mövqeyini öyrənmək lazımdır. Onlar buna hazır deyilsə, yüngülsaqqal olub özümüzə problem yaratmağa dəymaz. Qonşularımızın, müttəfiqlərimizin bu məsələyə nə dərəcədə həssas yanaşacağını da nəzərə almalıyıq. Biz gözləməliyik ki, ABŞ bizimlə strateji müttəfiqliyə dair saziş imzalamaq istəyirsə özü belə təşəbbüslə çıxış etsin. Amma ABŞ etibarlı tərəfdaş olmadığından - Ukrayna gözümüzün önündədir - bunun təhlükəli olduğunu növbəti dəfə xatırladıram. Rusiyanın istəyi ilə ABŞ bu bölgədən tamamilə çıxa bilər. Rusiya-ABŞ danışıqlarının sonunu gözləmək lazımdır".

**Politoloq Yusif Bağırzadə** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın bu və ya digər dövlətlərlə ikitərəfli münasibətlərində diqqət etdiyi əsas məqam bu münasibətlərin bərabərhüquqlu və qarşılıqlı faydalı olması ilə bağlıdır: "Məhz bu prinsiplər əsasında qurulan qarşılıqlı münasibətlərin nəticəsidir ki, Azərbaycan rahat şəkildə bir-biri İlə elə də yaxşı münasibətləri olmayan dövlətlərlə belə, ayrı-ayrılıqda strateji müttəfiqlik münasibətləri qura bilib. Həm Türkiyə, həm də İsraillə münasibətlərimiz və ya həm Rusiya, həm də Ukrayna ilə münasibətlərimiz buna əyani sübutdur. İndi də ABŞ-la strateji müttəfiqliklə bağlı hər hansı saziş imzalamaq üçün imkanlar varsa, bunun üçün ABŞ-Rusiya danışıqlarının nəticəsini gözləməyə ehtiyac yoxdur. Bizim üçün prioritet olan müttəfiqlik münasibəti quracağımız ölkə ilə ikitərəfli münasibətlərimiz və bu münasibətlərdən ölkə olaraq əldə edəcəyimiz fayda olmalıdır. Çünki bizim hər hansı ölkə ilə münasibətlərimiz üçüncü bir ölkəyə qarşı yönəlməyib.

Konkret ABŞ-a gəldikdə isə bu ölkə ilə otuz ildən artıq tarixə malik diplomatik münasibətlər var və bu da əslində hər iki dövlətin qarşılıqlı əlaqələrdə maraqlı olmasından xəbər verir. Trampın yenidən prezident seçilməsi Azərbaycan-ABŞ əlaqələrinin keyfiyyətcə yeni mərhələyə keçməsinə təkan verə bilər. Məlumdur ki, Trampın əvvəlki prezidentliyi dövründə ABŞ-Azərbaycan münasibətləri yüksək səviyyədə olub".

**Politoloq qeyd etdi ki, ikinci bir tərəfdən ABŞ dünya siyasətini müəyyənləşdirən əsas güclərdən biridir və belə bir güclə münasibətlərin inkişaf etdirilməsi, xüsusilə də indiki, yeni dünya düzəninin formalaşma mərhələsində bizim üçün əlavə imkanlar aça bilər:** "Avropa və Asiya arasında körpü rolunu oynayan ölkəmizin gələcək dövr üçün qlobal əməkdaşlığın inkişafında açar rolunu üstlənəcəyi şübhəsizdir. Bu, Azərbaycanın bütün dünya üçün iqtisadi marağını artırır. Eləcə də ABŞ qlobal iqtisadi əməkdaşlıqda Azərbaycanın rolunun daha da möhkəmlənməsi üçün mühüm addımlar ata bilər".

**Politoloq Qabil Hüseynli isə hesab edir ki, Donald Trampın ikinci hakimiyyətinin birinci hakimiyyətindən xeyli dərəcədə fərqli olacağı son bir aydakı fəaliyyətindən görünür:** "Tramp birinci hakimiyyəti dövründə Azərbaycan-Amerika münasibətlərini gərginləşdirməmək xəttini davam etdirməyə üstünlük verirdi. İndi qarşıdakı 4 ilə yaxın bir zamanda - əgər hakimiyyətdən hər hansı səbəbdən vaxtından tez getməyəcəksə - Azərbaycana, Cənubi Qafqaza yönəlik siyasətinin necə olacağı hələ dəqiq deyil. Tutaq ki, Azərbaycan, səfirin dediyi kimi, ABŞ-la strateji müttəfiqlik müqaviləsi imzalamağa hazırdır, gəlin görək ABŞ, şəxsən prezident Tramp buna hazırdırmı, bunu indiki vəziyyətdə istəyirmi. Mən belə hesab edirəm ki, Donald Trampın özü belə ABŞ-ın Cənubi Qafqaz ölkələri, o cümlədən bu bölgənin əsas dövləti Azərbaycanla münasibətlərinin hansı səviyyədə davam etdirilməsi məsələsində qərarlı deyil. Belə demək mümkündürsə, ABŞ-ın özü bunun üçün Rusiya-Ukrayna müharibəsinin başa çatmasını gözləyir".

**Politoloqun fikrincə, məsələnin başqa bir tərəfi ondan ibarətdir ki, Rusiyaya yaxınlığı ilə fərqlənən Tramp bu gün ABŞ-Rusiya münasibətlərini düzəltməyi qarşısına məqsəd qoyub:** "ABŞ-la Azərbaycan arasında strateji müttəfiqlik müqaviləsinin imzalanmasından isə Rusiyanın razı qalmayacağını sübut etməyə ehtiyac yoxdur. O zaman sual olunur: ABŞ-ın Rusiya ilə konfrontasiyaya getməyin əleyhinə olan yeni prezidenti Rusiyanı narazı salacaq addımı atacaqmı? Məncə, bu sualın cavabı aydındır. Ukraynaya görə Rusiya ilə vuruşmağa qarşı olan ABŞ sabah Azərbaycana görə Rusiyanın xətrinə belə dəymək istəməz".

Etibar SEYİDAĞA,
"Yeni Müsavat"



# Azərbaycana qarşı təxrìbat hazırlığı anonsu

## Rəsmi İrəvanın sülh müqaviləsini gecikdirməsi revanşistlərin hərəkətə keçməsinə imkan yaradıb; belə avantürist qüvvələrdən birinə ölkənin keçmiş baş diplomatı rəhbərlik edir

**Ermənistan rəhbərliyinin müxtəlif bəhanələrlə sülh razılaşmasını uzatması ölkə daxilindəki revanşistlərin də əl-qolunu açır. Son zamanlar bu qüvvələr müxtəlif paytaxtlardan aldıqları təlimatlar əsasında baş qaldırırlar.**

İrəvandakı belə avantürist qüvvələrdən birinə ölkənin keçmiş baş diplomatı rəhbərlik edir. Söhbət Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyandan gedir. "Artsax xalqının əsas hüquqlarının müdafiəsi üzrə komissiyanın" iclası haqda Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyanın bu günlərdə yaydığı məlumatda bir neçə diqqətçəkən məqam var.

Əvvəla, bəlli olur ki, hələ 2023-cü ilin sentyabrında bütün dünyaya qondarma "artsax" və ona tabe oyuncaq strukturların ləğvini elan etsə də, hələ də Milli Assambleya" adı altında "fəaliyyət göstərirlər", hətta bəzi ölkələrdə görüşlər də keçirirlər.

Oskanyan qeyd edir ki, "komissiya öz səylərini artsaxın məcburi köçkün əhalisinin təhlükəsiz, kollektiv və ləyaqətlə qayıtmasının təmin edilməsinə, Bakı həbsxanalarında qanunsuz saxlanılan erməni girovlarının azad edilməsinə yönəldib". İddia olunur ki, guya ATƏT-in Minsk Qrupunun üç həmsədr ölkəsi - ABŞ, Rusiya və Fransa ermənilərin geri qayıtmaq hüququnu açıq şəkildə dəstəkləyib. Oskanyan ya bilərəkdən, ya da bilməyərəkdən Azərbaycana qarşı beynəlxalq miqyasda hazırlanan təxribat planlarını açıqlayıb. "Bu yaxınlarda İsveçrə Milli Şurası Artsax və Azərbaycan nümayəndələrinin dialoq apara biləcəyi platformanın yaradılması təklifini qəbul edib. Bir neçə oxşar qətnamə Avropa paytaxtlarında və ABŞ Konqresində müzakirə olunur. Bu günə qədər əldə edilmiş nailiyyətlərə əsaslanaraq, komissiya öz işinin həlledici mərhələsinə qədəm qoyub. Yaxın aylarda o, Vaşinqton, Brüssel, Cenevrə və digər şəhərlərdə təşkil olunan tədbirlərdə iştirak edəcək, vasitəçilik prosesi üçün zəruri olan diplomatik atmosferin yaradılmasına yönəlmiş yüksək səviyyəli görüşlər keçirəcək".

Göründüyü kimi, Qərbdəki bəzi paytaxtlar erməni kartını əldən verməmək üçün "artsax"namələrdən yararlanmaqda davam edirlər, burada Oskanyan da çox fəallıq edir. Revanşistlər ayrı-ayrı paytaxtlardan aldıqları təlimatlara əsasən axmaq iddialarını səsləndirməkdədirlər. Növbəti təxribatları önləmək üçün hansı addımlar atılmalıdır?

**Deputat Elçin Mirzəbəyli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan ərazilərini könüllü şəkildə tərk etmiş, aralarında müharibə canilərinin, terrorçuların da yer aldığı erməniəsilli şəxslərin "qayıdış hüququ" ilə bağlı məsələnin Ermənistan da daxil olmaqla, bir sıra ölkələr və təsisatlar tərəfindən gündəmdə saxlanılması cəhdləri təzyiq xarakterli addımlardır: "Bu məsələdən hazırda əks-qütblərdə dayanan dairələr belə öz maraqları, Cənubi Qafqaza təsir imkanlarının əldə edilməsi, bərpası və yaxud qorunub saxlanılması üçün istifadə edirlər. Bu xüsusda maraqlı tərəflərin hansısa siyasi şoular düzənləmələri, hüquqi qüvvəsi olmayan qərarlar qəbul etmələri mümkündür, amma beynəlxalq hüquq kontekstində sözügedən məsələnin heç bir real perspektivi yoxdur. Əvvəla, Azərbaycan ərazilərini könüllü şəkildə tərk edən ermənilərin, müxtəlif mənbələrdən əldə etdiyim məlumatlara görə, təxminən yarısından çoxunun Azərbaycan Respublikasının suveren əraziləri ilə hər hansı bir formada əlaqələri yoxdur. Onlar Ermənistan, Livan, Suriya, Rusiya və digər ölkələrdən işğal dövründə Azərbaycan ərazilərində qanunsuz olaraq məskunlaşdırılan şəxslərdir. Digər tərəfdən, Azərbaycan ərazilərini könüllü şəkildə tərk edən erməni əsilli şəxslərin əhəmiyyətli hissəsi Ermənistan, Rusiya, Livan, Suriya və digər ölkələrin vətəndaşlarıdır. Bu isə o deməkdir ki, onlar Azərbaycan ərazilərində işğal rejiminin qanunsuz qərarları əsasında yaşayıblar və bu qərarların legitim əsasları olmadığı üçün onların Azərbaycan ərazilərinə qayıdışı mümkün deyil". **E.Mirzəbəyli qeyd etdi ki, qayıdışın mümkünsüzlüyünü əsaslandıran başqa bir amil həm Ermənistan ərazisindən didərgin salınan azərbaycanlı qaçqınların, həm məcburi köçkünlərin hüquqlarının kobud şəkildə pozulmasının səbəblərinin erməni işğalından qaynaqlanmasıdır:** "Bir milyona yaxın insanın hüquqlarının pozulması faktının və Azərbaycan ərazilərində 30 ilə yaxın törədilən ağır müharibə cinayətlərinin məsuliyyəti işğalçı ölkənin üzərinə düşür. Etnik və dini mənsubiyyətindən, sosial mənşəyindən asılı olmayaraq, insanların öz evlərindən köçkün və ya qaçqın düşmələri, yaxud yaşadıqları əraziləri könüllü şəkildə tərk etmələri Ermənistanın Azərbaycanın suveren ərazilərinə iddiası, bu ərazilərin bir hissəsini hərbi təcavüz nəticəsində öz nəzarətinə götürməsi, işğala son qoymaqdan imtina etməsi və işğalı davam etdirmək üçün qanunsuz hərbi müdaxiləyə son verməməsi, yalnız müharibə nəticəsində işğaldan əl çəkməyə məcbur olması nəticəsində baş verib. Bu isə o deməkdir ki, baş verən bütün hüquq pozuntularına, müharibə cinayətlərinə görə məsuliyyət Ermənistan Respublikasının üzərindədir və bu ölkə həmin hüquqların bərpası, kompensasiyası üçün BMT Nizamnaməsi və digər beynəlxalq hüquqi aktlar çərçivəsində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir. Bunun üçün rəsmi İrəvan ilk növbədə indiki Ermənistan ərazilərindən zorla çıxarılmış azərbaycanlıların ləyaqətli geriyə qayıdışını Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktın, Qaçqınların Statusuna dair Konvensiyanın və digər mühüm beynəlxalq aktların tələblərinə uyğun olaraq, təxirə salınmadan təmin etməlidir".

**Millət vəkilinin qənaətinə görə, qərbi azərbaycanlıların geriyə qayıdışı ilə bağlı toplumsal birgə mübarizə metodları ilə yanaşı, onların hüquqlarının beynəlxalq məhkəmələrdə fərdi qaydada bərpa olunması istiqamətində də müvafiq addımlar atılmalıdır:** "Yeni indiki Ermənistan ərazisindən, öz tarixi vətənlərindən deportasiya edilən azərbaycanlılar qayıdış hüquqlarının bərpası üçün kütləvi şəkildə beynəlxalq məhkəmələrə üz tutmalıdır". **Deputat digər vacib məqama da diqqət yetirməyi məqsədəuyğun sayır:** "Ermənilərin və qondarma "erməni məsələsi"ndən tarix boyu geosiyasi təzyiq aləti kimi faydalananların, hazırda Azərbaycan ərazilərini könüllü şəkildə tərk etmiş erməni əsilli şəxslərin "geriyə qayıdışı" ilə bağlı siyasi şouları intensivləşdirmələrinin səbəblərindən biri də Azərbaycanda erməni əsilli müharibə canilərinin məhkəmə prosesi ilə bağlıdır. Çünki hazırda Azərbaycanın ədalət məhkəməsi qarşısında dayanan şəxslərin indiyədək səsləndirdikləri fikirlər, həmçinin bundan sonra dilə gətirəcəkləri etiraflar, Ermənistanın sabiq və indiki siyasi rəhbərliyi ilə yanaşı, işğalın davam etməsinə dəstək verən bütün ölkə və təsisatların sabiq və indiki rəhbərlərini də narahat edir. Məhkəmə prosesində onların da müharibə caniləri ilə işbirliyində olduğu barədə faktların açıqlanacağı gözləniləndir".

Rəsmi Bakının qərbi azərbaycanlıların ləyaqətli qayıdışının təmin olunması tələbi ilə beynəlxalq miqyasda çıxış etməsi Ermənistanı çıxılmaz vəziyyətə salıb. Bir müddət öncə Asiya Parlament Assambleyasının Bakı Bəyannaməsində qərbi azərbaycanlıların haqlarının bərpası ilə bağlı müddəanın əksini tapması, Milli Məclisdə keçirilən dinləmələr və digər təşəbbüslər Ermənistandakı revanşistləri də "əks-arqument"lərlə çıxış etmək məcburiyyəti ilə üz-üzə qoyub. Amma anlamalıdırlar ki, bütün bu iddialar mənasızdır: Qarabağdakı ermənilər - separatçı liderlər etiraf edirlər ki, Qarabağda 30 minədək erməni yaşayıb, onların da bir çoxu vaxtilə Rusiyaya, Avropaya köçüb - öz xoşları ilə bölgəni tərk edib və onların kitabı bağlanıb.

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**



# Tokayev Ceyhun Bayramovu qəbul etdi

**Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev Astanada rəsmi səfərdə olan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovu qəbul edib.**

Görüş zamanı tərəflər Azərbaycan və Qazaxıstan arasında iri strateji layihələrin, o cümlədən Xəzər dənizinin dibi ilə fiberoptik rabitə xəttinin və sualtı elektrik kabelinin çəkilməsinin həyata keçirilməsini müzakirə ediblər.

Tokayev bu görüşün çoxşaxəli dövlətlərarası əlaqələrin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd edib.

"Sizin səfəriniz qardaş Azərbaycanla əməkdaşlığımızın daha da inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Azərbaycanla əlaqələr bizim üçün çox əhəmiyyətlidir. Biz ölkənizi etibarlı strateji tərəfdaş və müttəfiq hesab edirik", - o vurğulayıb.

Azərbaycan Xarici İşlər Nazirliyinin başçısı səmimi qəbula görə minnətdarlığını bildirib və ikitərəfli münasibətlərin dinamik inkişaf etdiyini vurğulayıb.

Ceyhun Bayramov "Azərbaycan Hava Yolları" QSC-yə məxsus təyyarənin Aktauda qəzaya uğraması ilə bağlı faciə ilə əlaqədar göstərdiyi operativ köməyə görə Qazaxıstan tərəfinə minnətdarlığını bildirib.

Görüşdə həmçinin ticarət, investisiya, rəqəmsallaşma, tranzit və nəqliyyat sahələrində gələcək əməkdaşlığın perspektivləri də müzakirə edilib.

YENİ MÜSAVAT
N 46 (8656) 12 mart 2025



# Müxalifətdə radikallar və liberallar müzakirəsi qızışdı

## Pənah Hüseyn AMİP-in fəxri lideri və Müsavat funksioneri arasındakı polemikaya münasibət bildirdi: “Etibar Məmmədovun fəaliyyəti rəhbərliyi ələ keçirmək...”

**AMİP-in fəxri lideri Etibar Məmmədovun Azərbaycan Xalq Cəbhəsindən fikir ayrılığına görə çıxdığını deməsi müxalifət düşərgəsində müzakirə mövzusuna çevrilib.**

“1991-ci ilin avqustunda Xalq Cəbhəsinin birinci qurultayı ərəfəsində mən yenə də təkliflə çıxış etdim ki, qurultayda dəyişiklik lazımdır. Biz müstəqil dövlətin yaradılmasını proqram kimi bu qurultayda qəbul etməliyik. Onlar yenə də bunun əleyhinə çıxdılar və mən elan etdim ki, Xalq Cəbhəsindən ayrılıram”, - deyə E.Məmmədov bildirib.

Müsahibənin dərc edilməsindən sonra Müsavat Partiyasının Məclis sədri Arif Hacılı deyib ki, E. Məmmədov AXC-dən ayrılanda suverenlik məsələsi artıq keçilmiş mərhələ idi. "Etibar Məmmədov AXC-ni bundan azı il yarım sonra 1991-ci ildə, bu təşkilatla bağlı planları baş tutmadıqdan sonra tərk edib”.

AMİP-in Ali Məclisinin sədri Rəşad Bayramov da müzakirələrə qoşulub. “Hər kəs də bilir ki, AXC daxilində radikallar adlanan və Etibar Məmmədovun rəhbərlik etdiyi qanad AXC-nin müstəqillik uğrunda mübarizə aparmasını və sonra demokratik cəmiyyət qurulmasını, liberallar isə SSRİ daxilində demokratiya uğrunda mübarizəni və yalnız bundan sonra müstəqillik ideyasını dəstəkləyiblər. Yəni başqa sözlə desək, Etibar Məmmədovun səsləndirdiyi fikirlər bir çoxlarına yaxşı məlum olan həqiqətlərdir”.

O qeyd edib ki, Arif Hacılının birdən-birə bu fikirlərə reaksiya verməsi və faktları təkzib etməyə cəhd etməsi başa düşülən deyil: "Ortada konkret sənədlər var. Hələ 1989-cu ildə AXC-nin təsis konfransında Etibar Məmmədov müstəqilliyin nizamnamədə proqram məqsədi kimi öz əksini tapmasını və milliyyətçiliyin də əsas prinsiplərdən biri olmasını təklif etmişdi. Lakin nə həmin vaxt, nə də sonra, yəni 1991-ci il qurultayında deyilən məsələlər öz əksini tapmadı. Əbülfəz bəy konkret olaraq dedi ki, müstəqillik məsələsi hələ tezdir.

İndi Arif Hacılının 20 Yanvardan sonrakı mitinqdən video yayaraq nəyisə sübut etməyə çalışması uğursuz cəhddir. Əvvəla ona görə ki, 20 Yanvardan sonra hər kəs müstəqillik haqqında danışırdı. Təbii ki, 20 Yanvardan bir neçə gün sonra hansısa mitinqdə çıxış edib, biz müstəqillik istəmirik, SSRİ qalsın deməyə heç kəsin cəsarəti çatmazdı.

İkinci bir tərəfdən isə mitinqdə danışmaq başqa şeydir, müstəqillik uğrunda mübarizəni təşkilatın əsas məqsədi olaraq proqrama salmaq başqa şeydir. Yəni mitinqdə, toplantılarda, küçədə hər kəs nəsə danışa bilər, əsas olan bunu rəsmi olaraq təsbit etməkdir. Görünən odur ki, ya Arif Hacılının təmsil olunduğu təşkilatın sənədlərindən, proqramından xəbəri yoxdur, ya da bilərəkdən faktları təkzib edir".



**Azərbaycan Xalq Cəbhəsinin İdarə Heyətinin üzvü olmuş Pənah Hüseyn** isə “Yeni Müsavat”a bildirib ki, Etibar Məmmədovun verdiyi müsahibədən sonra yaranmış diskussiyalardan sonra məsələyə aydınlıq gəlməsi məqsədilə sosial şəbəkədə AXC-nin 09 dekabr 1989- cu ildə keçirilmiş ümumrespublika müşavirəsinin gündəliyini paylaşıb: “İstəsəniz, həmin gündəliyə baxa bilərsiniz. Gündəliyə DQMV-də Azərbaycanın suverenliyinin bərpasında AXC-nin iştirakı və mövqeyi, respublikada yaranış ictimai-siyasi vəziyyət, AXC- nin problemləri və inkişaf istiqamətləri, Azərbaycan SSR Ali Sovetinə və yerli sovetlərə seçkilərlə əlaqədar olaraq AXC-nin vəzifələri, Azərbaycan SSR-in siyasi və iqtisadi suverenlik problemləri daxil idi”.

**Pənah Hüseyn xatırlatdı ki, Azərbaycan xalq hərəkatında və Azərbaycan Xalq Cəbhəsində yaranmış problemlərlə əlaqədar olaraq həmin müşavirədə şəxsən özü məruzə ilə çıxış edib:** “O zaman müzakirəyə çıxarılan birinci məsələ Azərbaycan xalq hərəkatının xarakterinin müəyyən edilməsi ilə bağlı idi. O zamankı çıxışımda da bildirmişdim ki, Azərbaycan xalq hərəkatı nə sırf demokratik, nə də sırf milli-azadlıq hərəkatı deyil. Lap əvvəldən, ilk günündən Azərbaycan xalq hərəkatı milli demokratik xarakter daşıyır. Hərəkatın ali məqsədi müstəqil Azərbaycan dövlətinin yaradılması və eyni zamanda həmin müstəqil və suveren Azərbaycan dövlətini demokratik cəmiyyət şəklində görməkdir. Azərbaycan xalq hərəkatının guya sonradan milli-azadlıq mərhələsinə daxil olması haqqındakı tezisi biz o zaman da yanlış hesab etmişdik. Hərəkatımız əvvəlcədən milli müstəqillik, milli-azadlıq xarakterini özündə daşıyıb.

Müşavirə materialları, o cümlədən məruzəmin tam mətni və məruzə ətrafında çıxışların stenoqrafiyası Yunus Oğuz tərəfindən 1989-cu ilin dekabrın sonunda “samizdat” “Dirçəliş” nəşriyyatında çap edilib yayılmışdı. Bundan əlavə, müşavirənin audioyazısı da saxlanır".

**Pənah Hüseyn xatırlatdı ki, AXC rəhbərliyində 1989-cu ilin payızında ziddiyyətlər güclənərək kəskin ideoloji və təşkilati böhrana keçmişdi:** “Görünür, Etibar Məmmədov son müsahibəsində bunu demək istəyib. Etibar Məmmədov xalq hərəkatının milli-azadlıq mərhələsinə daxil olduğunu irəli sürərək bu mərhələyə müvafiq proqram və nizamnamə qəbul edilməsi və yeni rəhbərlik seçilməsi tələbi ilə çıxış etmişdi. Lakin idarə heyətinin əksəriyyəti onun fəaliyyətini AXC-də rəhbərliyi ələ keçirmək niyyəti kimi dəyərləndirdi və bunu Azərbaycan SSR Ali Sovetinə yaxınlaşan seçkilərlə əlaqələndirdi. Etibar Məmmədovun fəaliyyətinin AXC-də rəhbərliyi ələ keçirməyə xidmət edib-etmədiyi barədə sualınızı isə Etibar Məmmədov cavablandıra bilər”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# “AzDrama”da bədii rəhbərə qarşı “qiyam”

## Xalq artisti: “Mehriban Ələkbərzadə teatrın düşmənidir”

**Son bir həftədir ki, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında (“AzDrama”) baş verən qalmaqal ölkənin gündəminə çevrilib. Məsələnin mərkəzində isə “Baş” tamaşasının hazırlıq prosesi və Mehriban Ələkbərzadənin teatrın bədii rəhbəri kimi fəaliyyəti dayanır.**



Hər şey martın 5-də Xalq yazıçısı Elçinin “Baş” romanı əsasında səhnələşdirilən tamaşanın məşqlərində başlayıb. Tamaşanın quruluşçu rejissoru, “AzDrama”nın bədii rəhbəri Mehriban Ələkbərzadə Ağabəyim ağa rolu üçün teatrın gənc və istedadlı aktrisası Günəş Təqini dəvət edib. Məhz bu seçim teatr daxilində gözlənilməz etirazlara səbəb olub.

İlk etiraz edənlərdən biri **Əməkdar artist Mehriban Xanlarova** olub. O, müsahibəsində teatr kollektivinin böyük bir hissəsinin Mehriban Ələkbərzadənin fəaliyyətindən narazı olduğunu bildirib: "Biz Mehriban Ələkbərzadənin kollektivə yuxarıdan aşağı baxmasından, aktyorlar arasında ayrı-seçkilik etməsindən narahatıq. Prezident mükafatları və fəxri adlar üçün təqdim olunan siyahıların şəxsi münasibətlərə əsasən tərtib edilməsi bizi qorxudur. İçi mən qarışıq, həmkarlarım narahatdır ki, adlarımız siyahılardan bilərəkdən çıxarıla bilər. Biz özümüz üçün rol istəmirik. Amma teatrın bir kənarında qalmış, istedadı görməzlikdən gələnən aktyor və aktrisalar var. Bəs niyə onlara səhnəyə çıxmaq şansı verilmir?"

**Xalq artisti Əli Nur isə daha sərt mövqe sərgiləyib:** “Teatrda nə ağsaqqal var, nə qarasaqqal. Mehriban Ələkbərzadə teatrın düşmənidir. O, "AzDrama"nın qapısından içəri girməyə layiq deyil. Bu teatrda Adil İsgəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov, Həsən Turabov, Əliabbas Qədirov kimi sənətkarlar olub. İndi isə bizi kənara qoyub, "Yuğ" Teatrından gələn adam rəhbərlik edir. Ömür boyu teatra kənardan aktyor-aktrisa gətirib, bu da istedadsızların səhnəyə çıxmasına səbəb olub".

**Əməkdar artist Münəvvər Əliyeva isə sosial şəbəkədə sərt paylaşımı ilə diqqət çəkib:** ""AzDrama"da repressiya dövrü davam edir. Aktyorlarımız, bəs siz niyə susursunuz? Səhnədə göstərdiyiniz cəsarətdən həyatınıza da pay düşməyəcək? Teatr həyatın kiçik modelidirsə, bu susqunluq nə üçündür?"

**“AzDrama”nın bədii rəhbəri Mehriban Ələkbərzadə isə açıqlamasında ittihamlara cavabında teatr daxilində islahatların aparılmasının vacibliyini vurğulayıb:** "Teatr əxlaqına görə daxildə baş verənlər kənara çıxmamalıdır. Narazı olanlar üçün qapım açıqdır. Yeni nəsil gəlməlidir. 60 yaşlı adamın 20 yaşlı rolu oynaması gülməlidir. Bu şounun nöqtəsi qoyulmalıdır".

O əlavə edib ki, Günəş Təqin dəvətli aktrisa deyil, artıq teatrın rəsmi əməkdaşıdır. Bundan əlavə, “Baş” tamaşasında kastinq yolu ilə seçilmiş beş tələbə-aktyor da iştirak edəcək. Onlar həm epizodik, həm də kütləvi səhnələrdə yer alacaqlar: “Teatrımızın aktyor bazasını gəncləşdirmək və yeniləmək üçün bu addımları atırıq. Bu proses gələcəkdə də davam edəcək”.

Teatr rəhbərliyi baş verənlərə münasibət bildirərək qeyd edib ki, son iki ildə "AzDrama" bir sıra uğurlara imza atıb. Məsələn, Aleksandrinski Teatrında “İblis və...” tamaşasının premyerası keçirilib, Belarus və Gürcüstan milli teatrları ilə memorandumlar imzalanıb və 2025-ci ildə qastrol səfərləri planlaşdırılıb. Rəhbərlik bəzi aktyorların narazılığını yaşlı nəslin gənclərə qarşı qısqanclığı kimi qiymətləndirib: "Bu etirazları konkret şəxsə - Mehriban Ələkbərzadəyə yönəltməkdənsə, teatrımızın uğurlarını təbliğ etmələrini arzu edərdik”.

“AzDrama”da yaşanan bu qalmaqal gənc və yaşlı nəslin qarşıdurmasını, yaradıcı kollektivdəki gərginliyi və islahatlara qarşı münasibətləri bir daha üzə çıxardı. Qalmaqalın necə sonlanacağı isə hələ də açıq qalır.

Xatırladaq ki, Mehriban Ələkbərzadə 2023-cü ilin may ayından etibarən Akademik Milli Dram Teatrının bədii rəhbəri təyin edilib. O, 2017-22-ci illərdə Azərbaycan Dövlət “Yuğ” Teatrının baş rejissoru kimi fəaliyyət göstərib. 2022-ci ildən 2023-cü ilin may ayına kimi Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının baş rejissoru vəzifəsində çalışıb.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 46 (8656) 12 mart 2025

**“Avropada ABŞ-dan "ayrılma" ilə bağlı fəal müzakirələr gedir. Təbii ki, Şimali Atlantika Tərəfdaşlığı üzrə müttəfiqlər bir-biri ilə elə inteqrasiya olunub ki, klassik “ayrılma” alınmayacaq. Həm ABŞ-ın, həm də Aİ-nin qarşılıqlı maraqları var".**

# Ya Bakının yanında olursan, ya...

## Politoloq: “Azərbaycanın təkliflərini qəbul etmək lazım gələcək”



Bu barədə politoloq Fərhad Məmmədov “Teleqram”da yazıb. Ekspert vurğulayır ki, Avropa İttifaqının (Aİ) strateji muxtariyyəti məsələsi Aİ-nin öz təşəbbüsü deyil, Tramp dövründə ABŞ-ın siyasətinə reaksiyadır: “Avropada bu addımları könülsüz və istəksiz atırlar. Aydındır ki, Trampın 4 illik prezidentliyi dövrünü gözləmək və münasibətlərin əvvəlki səviyyəsini bərpa etmək qeyri-real görünür. Odur ki, əvvəllər ABŞ-la tam koordinasiyada olan Aİ artıq təkcə Avropa səviyyəsində deyil, həm də digər regionlarla münasibətlər üzrə öz gündəliyini inkişaf etdirməli olacaq. Beləliklə, dünyanın konkret regionlarında Aİ-nin tərəfdaş ölkələri seçilməli, gözləntilərin və maraqların siyahısı tərtib edilməli, öz siyasətini həyata keçirmək üçün mexanizm və alətlər müəyyən edilməlidir”.

Politoloq qeyd edir ki, Aİ-nin strateji muxtariyyətinin müəyyən edilməsi kontekstində əsas problem Rusiya ilə münasibətlərin qurulması olacaq. Onun sözlərinə görə, Vaşinqton müstəqil şəkildə Moskva ilə münasibətlərin sabitləşməsinə və daha da normallaşmasına doğru addım atacağı təqdirdə Brüssel Kremllə münasibətlərinə yenidən baxmalıdır.

“Ağ Ev administrasiyası artıq bildirib ki, Rusiyaya qarşı sanksiyaları ləğv etmək vaxtı gələndə Aİ danışıqlar prosesində olacaq. Aİ-nin strateji muxtariyyəti Trampın rədd edilməsi çətin olan bu təkliflə sınaqdan keçiriləcək”, - o əlavə edib.

**F.Məmmədov daha sonra yazıb:** “Bu gün Aİ liderləri belə mövqe tuturlar ki, ABŞ və Rusiya Ukraynada atəşkəsə nail ola bilsələr və Ukrayna rəhbərliyini atəşkəs şərtlərini qəbul etməyə sövq edə bilsələr belə, Avropanın Rusiyaya qarşı sanksiyaları ləğv edilməyəcək. Aİ ölkələrinin məqsədi Rusiyanı daha da zəiflətmək və çəkindirici vasitə kimi Ukraynanı gücləndirməkdir. Yəni Aİ-nin Rusiya ilə münasibətləri qısa müddətdə normallaşmayacaq”.

**Ekspert vurğulayır ki, beləliklə, strateji muxtariyyət kontekstində Aİ xarici siyasi fəaliyyətinin digər sahələrində ABŞ-la bir araya gəlməməlidir:** “Məsələn, Çinlə münasibətlərdə Aİ-nin ABŞ-dan fərqli olan öz prioritetləri ola bilər. Bu kontekstdə Aİ-nin Rusiya və ABŞ-dan yan keçərək Çinlə əlaqə saxlaması vacib olacaq. Məlum olduğu kimi, Avropadan Çinə gedən quru yollarına Rusiya, dəniz ticarət yollarına isə ABŞ nəzarət edir. Bu nəzarətdən kənar Avropadan Çinə yeganə marşrut Türkiyə, Cənubi Qafqaz regionu, İran və Mərkəzi Asiya ölkələrindən keçəcək. Yəni Orta dəhliz yenidən aktuallıq qazana bilər”.

**Fərhad Məmmədov hesab edir ki, Mərkəzi Asiya regionu Aİ siyasətinin digər bir sahəsinə çevriləcək**: “Aİ-Mərkəzi Asiya sammitinin aprelin əvvəlində keçirilməsi planlaşdırılır və bu sammiti Bakıda diqqətlə izləməyə dəyər. Mərkəzi Asiyaya yol Gürcüstan və Azərbaycandan keçir. Nəqliyyat məsələsi yeganə məsələdir ki, Aİ yüklərin həcmini regional marşrutlara yönləndirməklə Cənubi Qafqazda konstruktiv rol oynaya bilər”.

Təhlilçi bildirir ki, əgər Aİ Ermənistan üzərindən kommunikasiyaların açılmasında maraqlıdırsa, o zaman o, Bakının işğaldan azad edilmiş ərazilərdə infrastrukturun bərpasının maliyyələşdirilməsində iştirak etmək üçün təkliflər hazırlamalı olacaq. Onun sözlərinə görə, Bakı ilə əlaqə qurmağın başqa yolu yoxdur. “Ermənistana kömək etmək üçün Azərbaycanın təkliflərini qəbul etmək lazım gələcək. Çünki Aİ-Cənubi Qafqaz formatını rəsmiləşdirməyin vaxtı çatıb”, - ekspert qeyd edib.

F.Məmmədov hesab edir ki, Aİ-Mərkəzi Asiya və Aİ-Cənubi Qafqaz formatlarında müzakirə olunan bütün bu təşəbbüslər təhlükəsizlik çətirinə malik olmalıdır, burada Türkiyənin Aİ üçün rolu mübahisəsizdir: “Göründüyü kimi, strateji muxtariyyət perspektivləri Aİ üçün qonşu və mühüm regionlarla əlaqələrin inkişafı baxımından çoxlu imkanlar yaradır. Bu kontekstdə Aİ üçün yeganə təhlükə lazımi siyasəti həyata keçirə bilməyən qurumun birliyin ölkəsinin yanlış seçimidir. Məsələn, Fransanın Türkiyə və Azərbaycanla qarşılıqlı əlaqələrdə mənfi təcrübəsi var. Parisin Gürcüstan hökuməti ilə münasibətləri də mürəkkəbdir”.

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

# Avropa İttifaqı hərbi sammitə ABŞ-ı çağırmadı

**ABŞ nümayəndə heyəti Ukraynanın təhlükəsizliyini təmin edəcək beynəlxalq qüvvələrin yaradılmasını müzakirə etmək üçün Parisdə keçirilən hərbi sammitə dəvət edilməyib.**

“AzPolitika” xəbər verir ki, “Associated Press”in Fransa hərbi rəsmilərinə istinadla yaydığı məlumatda belə deyilir. Məlumatda qeyd olunur ki, amerikalılar sammitə dəvət olunmayıb, çünki avropalılar mümkün atəşkəsdən sonra Ukraynada sülhün qorunmasına görə məsuliyyəti öz üzərlərinə götürməyə qadir olduqlarını nümayiş etdirmək istəyirlər.

Sammitdə ABŞ istisna olmaqla, NATO-ya üzv olan 32 ölkənin demək olar ki, hamısının qərargah rəisləri və ya onların nümayəndələri iştirak edib. Ukraynanı sammitdə ölkənin Təhlükəsizlik və Müdafiə Şurasının üzvü olan hərbçi təmsil edib.

Sammitdə Fransa və Böyük Britaniya tərəfindən yaradılması təklif edilən beynəlxalq təhlükəsizlik qüvvələrinin hərbi əməliyyatların dayandırılmasından sonra Rusiyanın təkrar genişmiqyaslı hücumunun qarşısını necə alacağı müzakirə olunub. “Daha dəqiq və konkret” müzakirələr də planlaşdırılır ki, bu müzakirələr zamanı iştirakçılar təşəbbüsdə iştirak etməyə dəvət olunacaqlar. Lakin missiyada iştirakla bağlı yekun qərarı siyasi səviyyədə dövlət başçıları verəcək.

# KTMT ermənilərdən pul istəyir

## Ermənistan üzvlük haqqını ödəmədiyi təqdirdə, təşkilata üzv ölkələr müxtəlif ssenarilərə baxa bilər - hansılardır?



**Ermənistan 2025-ci ilin sonunadək Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) büdcəsinə üzvlük haqqını ödəmədiyi təqdirdə, təşkilata üzv ölkələr müxtəlif ssenarilərə baxa bilərlər.**

Bu barədə Rusiya xarici işlər nazirinin müavini Aleksandr Pankin bildirib.

Onun sözlərinə görə, bu halda KTMT üzvünün artıq iki ildir ki, üzvlük haqqını ödəmədiyi vəziyyət yaranacaq: “Güman ki, heç kim heç kimi qovmayacaq, heç kim avtomatik olaraq getməyəcək. Lakin yəqin ki, ölkələr arasında gələcək əməkdaşlığın modallığı məsələsinə baxmaq olar. Bunu onlar özləri gedəcək və ya onları qovacaqlar kimi qəbul etmək lazım deyil, çünki mən müxtəlif şəxslərin fikirlərini oxuyuram”.

Madam Ermənistan qovulmayacaq, o zaman Pankin “müxtəlif ssenarilərə baxa bilərlər” deyərkən nəyi nəzərdə tutur? Bayden administrasiyası dövründə Rusiya KTMT ilə bağlı Ermənistana ciddi təzyiq etməyib. Bu dəfə həqiqətən hansısa cəza olacaqmı? Çünki artıq ABŞ-ın prezidenti Bayden yox, Trampdır.

**Sözügedən məsələni “Bakı-Xəbər”ə şərh edən AMİP funksioneri Əli Orucovun fikrincə, bu o deməkdir ki, Moskva KTMT ilə bağlı İrəvana təzyiqləri artıracaq:** “Təzyiqlər də müxtəlif formada olacaq. Əvvəla, Ermənistanı KTMT-də fəaliyyətini dondurduğuna və vəsait ödəmədiyinə görə təşkilatdan uzaqlaşdırmaq Rusiyanın mənafeyinə uyğun deyil. Əksinə, belə bir qərar Paşinyanın maraqlarına uyğun olacaq. Yəni Paşinyanın etməli olduğu işi Rusiya edəcək. O da bundan maksimum istifadə edərək Fransa və digər ölkələrlə hərbi müttəfiqlik haqqında müqavilə imzalayacaq. Onsuz da Avropa İttifaqının Ermənistanda artan hərbi mövcudluğu kimsə sirr deyil. Ona görə də Rusiya belə bir əsası Ermənistan hakimiyyətinə verməz. Əvəzində Paşinyan hakimiyyətinə müxtəlif təzyiqləri artıracaq. Artıq bunun əlamətləri ortadadır. Son vaxtlar Ermənistanda Rusiyaya bağlı revanşist qüvvələr nəzərəçarpacaq dərəcədə fəallaşıb. Hesab edirəm ki, bu, əslə təsadüfi deyil. Rusiya yaxşı bilir ki, Birləşmiş Ştatlar əvvəlki kimi Paşinyanı müdafiə etməyəcək. Avroittifaq isə ABŞ-ı əvəzləmək gücündə deyil. Üstəlik, son vaxtlar Ermənistan rəsmiləri Rusiyaya yönəlik manevrlər etməyə başlayıblar. Digər tərəfdən, Rusiyanın Ermənistana iqtisadi təsir rıçaqları genişdir. Təkcə Ermənistan istehsalı olan məhsulların idxalına məhdudiyyətin qoyulması və qazın qiymətini artırmaq kifayətdir ki, İrəvan geri addım atsın. O baxımdan hesab edirəm ki, Rusiya Ermənistan barədə o qədər də narahat görünmür”.

❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 46 (8656) 12 mart 2025



# "Meşə qardaşları"nın həbs müddəti uzadıldı

**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Qusar rayonundakı terror qruplaşmasına qarşı ilin ən böyük əməliyyatı zamanı saxlanılan şəxslərin həbs müddəti uzadılıb. "Qafqazinfo" xəbər verir ki, DTX müstəntiqinin vəsatətinə Səbayel Rayon Məhkəməsində baxılıb. Məhkəmə ibtidai araşdırmanın davam etdiyini və iş üzrə yeni sübutların toplanmasının vacibliyini nəzərə alaraq saxlanılan şəxslərin istintaq təcridxanasında qalmasını zəruri hesab edib.**

Qərara əsasən, təqsirləndirilən şəxslərin həbsdə saxlama müddəti 3 ay uzadılıb. Xatırladaq ki, əməliyyat-istintaq tədbirləri ilə əvvəllər "Meşə qardaşları" adlı terror qruplaşmasının fəaliyyətində iştirak etdiyinə görə məhkum olunmuş şəxslərin qeyriləri ilə cinayət əlaqəsinə girməsi, onların birlikdə Qusar rayonu ərazisində terror aktları hazırlamaları, həmin rayonun Hil, Cibir və Yasab kəndlərini əhatə edən meşə massivində yeraltı sığınacaqlar yaratmaları, bu sığınacaqları silah-sursat, partlayıcı maddələr, texniki qurğular və digər zəruri ləvazimatlarla təchiz etmələri təsbit olunub.

Əməliyyatçılara müqavimət göstərərkən qanunsuz silahlı birləşmənin bir neçə üzvü zərərsizləşdirilib.

Cinayətkar dəstənin üzvləri - Etibar Əhmədov, Rəhim Mirzəbəyov, David Rəşidov, Şərafəddin Mahmudov, Abugül Babayev və Elçin Əlirzayev saxlanılıb.



# Bakıda sürücünün döyülməsinin səbəbi...

**Bakıda dörd nəfərin küçədə bir nəfərin avtomobilinə hücum edərək sürücünü ölümcül döyməsinin səbəbi məlum olub.**

"Teleqraf"ın əldə etdiyi məlumata görə, hadisə qadın üstündə baş verib. Belə ki, avtomobilin sürücüsü insidentdə iştirak edənlərdən birinin həyat yoldaşına söz atıb. Qadın isə bu barədə həyat yoldaşına məlumat verib. Bundan sonra qadının həyat yoldaşı digər şəxslərlə birlikdə həmin şəxsi cəzalandırmaq üçün onu izləyiblər. Onu küçədə avtomobilində tutublar, ölümcül döyüblər.

Əməli törətməkdə şübhəli bilinən Natiq Mustafakamalov, Vahid Cavadov, Nazim Rəhmanov və Azər Zahidli polis əməkdaşları tərəfindən saxlanılaraq istintaqa cəlb olunublar. Natiq Mustafakamalov, Vahid Cavadov, Nazim Rəhmanov və Azər Zahidlinin barəsində qətimkan tədbirinin seçilməsi ilə bağlı təqdimata baxılıb.

Binəqədi Rayon Məhkəməsi istintaq orqanının təqdimatını təmin edib. Məhkəmənin qərarı ilə N.Mustafakamalov, V.Cavadov və N.Rəhmanovun hər biri barəsində 3 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri seçilib.

Hadisədə iştirak edən A.Zahidli ilə bağlı verilən təqdimat təmin olunmayıb və o, sərbəst buraxılıb.

# Generalın apelyasiya məhkəməsi başladı

## "İşin başında duran şəxslər bura gəlməlidir" - MN-dəki 143 milyonluq mənimsəmə işi

**Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi general-mayor Nizami Məmmədov, Hərbi Hava Qüvvələrinin Maliyyə Xidmətinin sabiq rəisi polkovnik Cəlal Kazımov, Quru Qoşunlarının Maliyyə İdarəsinin sabiq rəisi Bayram Bayramov və Hərbi Dəniz Qüvvələrinin Maliyyə Xidmətinin sabiq rəisi Vüsal Əlizadənin barəsində olan hökmdən verilən apellyasiya şikayəti üzrə məhkəmə prosesi davam etdirilib.**

Bakı Apelyasiya Məhkəməsində hakim İbrahim İbrahimlinin sədrliyi ilə keçirilən prosesdə **təqsirləndirilən Cəlal Kazımov** çıxış edib.

O bildirib ki, mənimsəmədə birbaşa əli olan şəxslər hazırda azadlıqdadır: "Müdafiə Nazirlinin Maliyyə və Büdcə İdarəsinin Təftiş şöbəsinin rəisi Rəfail Xələfov bu iş üzrə başda durur. Onun 7 milyon mənimsədiyi ekspertiza ilə müəyyən olunsa da, azadlıqdadır. Bununla yanaşı, N.Poladov da hələ də həbs olunmayıb. Onlar bura gəlməlidir. Bu vəsatətimiz birinci instansiya məhkəməsində də təmin edilmədi. Mənim imzam heç yerdə getməyib. Lakin mən 37 aydır həbsdəyəm. 102 hərbi hissənin ekspert rəyi 1 həftəyə hazırlanıb verilib. Bu, absurddur. Mənə mənimsəmə ilə bağlı irəli sürülən məbləğ tamamilə şişirdilib".

**O, 18 yaşından Vətənə xidmət etdiyini vurğulayıb:** "Mənim xidmətim 18 yaşımdan başlayır. I Qarabağ müharibəsində iştirak etmişəm. Vətənimə bağlıyam. Bu cinayət işi üzrə biz sadəcə qurban verilmişik. Təftiş Nizami Məmmədovun vəzifəyə gəldiyi vaxtdan aparılıb. Əvvəlki dövrlər də yoxlanılmalı idi. Mən məhkəmədən adını çəkdiyim şəxslərin prosesə çağırılmasını xahiş edirəm".



Hakim məhkəmə istintaqının aparılmadığını əsas gətirərək vəsatəti təmin etməyib.

Digər təqsirləndirilən Bayram Bayramovun vəkili istintaqın iş üzrə araşdırmasının nəticəsinin məhkəməyə təqdim edilməsi barədə vəsatət qaldırıb.

Məhkəmə vəsatəti təmin etməyib.

Təqsirləndirilən Vüsal Əlizadə birinci instansiya məhkəməsində vəsatətlərinin təmin edildiyini, amma işin araşdırılmadığını bildirib:

"Bakı Hərbi Məhkəməsində işimiz düzgün araşdırılmadı. Biz 3 il bir aydır 3-4 kvadratmetr yerdə qalırıq. Mən apelyasiya şikayətimi müdafiə edirəm. Məhkəmədən Cinayət Məcəlləsinin 62-ci maddəsinin tətbiq edilməsini xahiş edirəm".

Məhkəmə prosesi aprelin 7-də davam etdiriləcək.

Qeyd edək ki, Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi general-mayor Nizami Məmmədov, Hərbi Hava Qüvvələrinin (HHQ) Maliyyə Xidmətinin sabiq rəisi polkovnik Cəlal Kazımov, Quru Qoşunlarının maliyyə idarəsinin rəisi Bayram Bayramov, Hərbi Hava Qüvvələrinin maliyyə xidmətinin sabiq rəisi Vüsal Əlizadə, Müdafiə Nazirliyinin Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi polkovnik Mahir Şirvanov, həmçinin nazirliyin Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi Məlikməmməd Qurbanov, nazirliyin mənzil istismar idarəsinin sabiq rəisi polkovnik Fikrət Mirzəyev Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həbs ediliblər.

Təqsirləndirilən şəxslərin hər birinə Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə törətmək) maddəsi ilə ittiham irəli sürülüb.

Cinayət işi üzrə ümumilikdə dövlətə dəymiş ziyan 143 milyon manat hesablanıb.

Cinayət işləri ayrı-ayrı icraatlarda baxılması üçün məhkəməyə göndərilib. Cinayət işi üzrə Maliyyə Nazirliyi zərərçəkmiş qismində tanınıb.

Bakı Hərbi Məhkəməsinin hökmünə əsasən, Nizami Məmmədov və Bayram Bayramov hər biri 11 il 6 ay, Cəlal Kazımov 11 il, Vüsal Əlizadə isə 10 il 6 ay müddətində azadlıqdan məhrum edilib. Eyni zamanda təqsirləndirilən şəxslərin üzərinə həbs qoyulmuş əmlaklarının müsadirə edilməsi barədə qərar qəbul olunub.

❑ **"Yeni Müsavat"**

# Cinayətə görə verilən cəzadan daha yüngül cəza

## Ali Məhkəmə 62-ci maddənin tətbiq edilməsi barədə məqamlara aydınlıq gətirib

**Ali Məhkəmə konkret iş üzrə qəbul etdiyi qərarda Cinayət Məcəlləsinin 62-ci maddəsinin (Cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəza təyin edilməsi) tətbiqi barədə məqamlara aydınlıq gətirib.**

Məhkəmə qərarında qeyd edilib ki, cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır. Cəzanın təyin edilməsinin ümumi əsaslarını nəzərdə tutan 58-ci maddəsində də göstərilir ki, cəza təyin edilərkən törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınır. Cəzanın məqsədini təsbit edən CM-in 41.2-ci maddəsinə əsasən cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədilə tətbiq edilir. Təsvir edilən maddi hüquq normaların məzmunundan, eləcə də cəza institutunun məqsədlərindən bəhs edən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Avropa Məhkəməsinin təfsirindən belə görünür ki, təqsirkar şəxsə təyin olunan cəzanın və yaxud digər cinayət-hüquqi xarakterli tədbirin ədalət prinsipinə cavab verməsi üçün Azərbaycan Respublikası CM-nin 58-ci maddəsində təsbit olunmuş cəzanın müəyyən edilməsinə təsir göstərən əsasların məcmu halında götürülməsi və nəzərə alınması tələb olunur.



O cümlədən, təqsirkarın cəzasını yüngülləşdirən və ağırlaşdıran hallar da elə nəzərə alınmalıdır ki, təyin olunmuş cəza və yaxud digər cinayət-hüquqi xarakterli tədbirlə cinayətin xarakteri və ictimai-təhlükəliliyi, törədilmə halları arasında uyğunsuzluq yaranmasın, cəza və yaxud digər cinayət-hüquqi xarakterli tədbir təqsirkarın şəxsiyyətinə uyğun olub onun islah edilməsini və cəzanın digər məqsədlərini, o cümlədən sosial ədalətin bərpası və başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınması üzrə rolunu təmin edə bilsin.

Cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəzanın təyin edilməsi məsələlərinə həsr olunmuş Azərbaycan Respublikası CM-in 62-ci maddəsinin mənasına görə isə cəzanı yüngülləşdirən ayrı-ayrı hallar və yaxud onların məcmusu Azərbaycan Respublikası CM-in 62.1-ci maddəsində sadalananlara, yəni cinayətin məqsədi və motivinə, təqsirkarın cinayətin törədilməsində roluna, cinayətin törədilməsi zamanı və sonrakı davranışına, digər hallara aid olub cinayətin ictimai təhlükəliliyini əhəmiyyətli dərəcədə azaltdıqda, şəxsin barəsində Azərbaycan Respublikası CM-in 62-ci maddəsinin tətbiqini mümkün edən əsaslar kimi nəzərdən keçirilə bilər.

# Buraxılış imtahanını verib məktəbə davam absurdu

## Kamran Əsədov: "Buraxılış imtahanlarının tədris ilinin bitməsindən bir neçə ay əvvəl keçirilməsi ilə bağlı qanunda aydın mexanizm yoxdur"

**Məktəblilər və onların valideynləri təhsil sisteminin eksperimentlər meydanına çevrilməsinə çoxdan öyrəşiblər. Ancaq bəzi məqamlar hələ də çoxları üçün suallar yaradır. Məsələn, niyə buraxılış imtahanları martın əvvəlində keçirilir, tədris ili isə iyunun 14-dək davam edir?**

Bu il tam (11 illik) orta təhsil pilləsinin bəzi məzunları imtahanları martın 2-də veriblər. İmtahan protokollarının emalına martın 3-dən başlanılıb və yekun nəticələrin növbəti 6 həftə ərzində elan edilməsi planlaşdırılır. Qalan məzunlar (təxminən 59 min nəfər) martın 9-da imtahan verdilər. Dövlət dilindən başqa dildə tədris alan sonuncu sinif şagirdləri üçün Azərbaycan dili imtahanı may ayında keçirilir. IX sinfi bitirənlər aprel ayında imtahan verəcəklər.

Üstəlik, qeyd etdiyimiz kimi, dərslər iyunun ortalarına qədər davam edir. Vaxtilə bir çox ekspertlər bu vəziyyəti imtahanlarda yoxlanılması çox vaxt aparan açıq tipli testlərin daha çox olması ilə izah edirdilər. Bundan əlavə, onların sözlərinə görə, abituriyentlərin qəbul imtahanlarına daha yaxşı hazırlaşmaq imkanı yaranır. Əksər abituriyentlər kurslarda iştirak edir və universitetə daxil olmaq üçün repetitorlarla görüşürlər və bir çoxları bu cür hazırlığa diqqət yetirməkdən sevinirlər, lakin onlar hələ məktəbə də getməlidirlər.

Təhsil ekspertləri deyir ki, bunun səbəbini məktəblərin başlamasını sentyabrın 15-nə çəkmək qərarında axtarmaq lazımdır. Buraxılış imtahanlarından sonra yeni şeylər öyrənmək deyil, öyrədilən materialı təkrarlamaq nə qədər məntiqlidir?

**Təhsil eksperti Kamran Əsədov** mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, bu vəziyyətin mahiyyətini anlamaq üçün həm ölkədaxili qanunvericiliyə, həm də beynəlxalq təcrübəyə nəzər salmaq vacibdir: "Təhsil qanununun 18-ci maddəsinə əsasən, ümumi orta və tam orta təhsil səviyyəsində şagirdlərin biliyi yekun attestasiyadan keçməlidir. Yekun attestasiya buraxılış imtahanları vasitəsilə həyata keçirilir. Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi imtahanlar bu qanunun icrasını təmin edir və şagirdlərin ümumi təhsilini tamamlaması üçün əsas qiymətləndirmə vasitəsi sayılır. Lakin buraxılış imtahanlarının tədris ilinin bitməsindən bir neçə ay əvvəl keçirilməsi və dərslərin davam etməsi ilə bağlı qanunvericilikdə aydın mexanizm yoxdur. Bunun əvəzinə, məktəbə davamiyyətin tədris planına uyğun aparılmalı olduğu vurğulanır. Bu isə formal bir tələb olaraq qalır və faktiki olaraq bir çox hallarda şagirdlərin buraxılış imtahanlarından sonra məktəbə davamiyyəti aşağı düşür".

**Ekspert qeyd edib ki, bir çox ölkələrdə buraxılış imtahanları məktəb ilinin sonuna təsadüf edir:** "Məsələn, ABŞ-da orta məktəbi bitirmək üçün keçirilən SAT və ya ACT imtahanları şagirdlərin 11-ci və ya 12-ci sinifdə olduqları müddətdə aparılır, lakin məktəb proqramı bununla paralel davam edir və imtahanlardan sonra əlavə dərs ilinə ehtiyac qalmır. İngiltərədə GCSE və A-Level imtahanları da məktəb ilinin sonuna təsadüf edir və şagirdlər imtahandan sonra məktəbə qayıtmaq məcburiyyətində deyillər. Almaniyada isə Abitur imtahanları əsasən aprel və may aylarında keçirilir və ondan sonra şagirdlər üçün məktəb proqramı faktiki olaraq başa çatır. Azərbaycanın mövcud təhsil sistemində isə



sentyabrın 15-də başlayan məktəb ili 34 həftə davam edir və iyunun 14-də yekunlaşır. Tədris planına uyğun olaraq, buraxılış imtahanları keçiriləne qədər şagirdlər bütün əsas fənləri mənimsəməli, proqramı tamamlamalıdırlar. Lakin buraxılış imtahanlarından sonra şagirdlərin əsas vəzifəsi universitetə qəbul olunmaq olduğundan, onlar məktəbə qayıtmağın mənasız olduğunu düşünürlər. Bu vəziyyət onların psixoloji durumuna da təsir edir. Bir tərəfdən, imtahan verib artıq qiymətləndirilmiş şagirdlər məktəbə gedərək vaxt itirdiklərini düşünürlər, digər tərəfdən isə müəllimlər də dərsləri davam etdirməkdə çətinlik çəkirlər, çünki şagirdlər motivasiyasız olurlar".

**Kamran Əsədov təhsil siyasəti baxımından bu problemin həlli üçün öz təkliflərini də qeyd edib:** "Birinci variant, buraxılış imtahanlarının tədris ilinin sonuna yaxın keçirilməsidir ki, bu zaman imtahandan sonra məktəbə qayıdış məsələsi aktual olmaz. Digər alternativ isə imtahandan sonra məktəbdə keçirilən dərslərin mahiyyətini dəyişməkdir. Məsələn, ABŞ və Avropa ölkələrində olduğu kimi, bu müddət ərzində şagirdlərə layihə əsaslı təhsil, peşə yönümlü kurslar və ya həyat bacarıqları ilə bağlı dərslər keçmək olar. Buraya maliyyə savadlılığı, karyera planlaşdırılması, akademik tədqiqat vərdişləri kimi fənlər daxil edilə bilər. Bu, həm də məktəbdənkənar repetitorluq sisteminin bir qədər balanslanmasına və məktəblərin funksionallığının artırılmasına kömək edə bilər.

Repetitorluq məsələsi ilə bağlı da statistikaya nəzər salmaq vacibdir. Son illərdə buraxılış imtahanlarından sonra şagirdlərin təxminən 70%-i müxtəlif kurslara və fərdi hazırlıqlara üz tutur. Bu, o deməkdir ki, məktəblər həmin dövrdə effektiv tədris verə bilmir və şagirdlər öz biliklərini başqa yerdə artırmağa üstünlük verirlər. Halbuki məktəbdə imtahandan sonra keyfiyyətli və hədəfə yönəlmiş proqramlar təşkil olunsa, əlavə hazırlıq ehtiyacı da azalacaq.

Mövcud sistemdə müəllimlər üçün də çətinliklər yaranır. Şagirdlərin əksəriyyəti imtahandan sonra motivasiyasız olduğu üçün müəllimlər dərs keçərkən aktiv auditoriya ilə qarşılaşmırlar. Buraxılış imtahanlarından sonra məktəbdə dərs demək daha çox formal xarakter daşıyır. Əgər bu dövrdə daha çox təkrara və imtahana yönəlik hazırlıq yerinə şagirdlərə real bilik və bacarıqlar qazandırmaq məqsədi güdülsə, təhsil prosesi daha səmərəli ola bilər.

Bu problemlərin həlli üçün Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi birgə mexanizm hazırlamalıdır. Sistem dəyişmədiyi halda, hər il eyni suallar gündəmə gələcək və buraxılış imtahanlarından sonra məktəbə davamiyyətin absurda çevrilməsi davam edəcək. Uzunmüddətli həll yolu isə məktəb və imtahan sisteminin daha ahəngdar və məqsədyönlü şəkildə qurulmasından keçir".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# "Oxumaq, oxumaq, yenə də oxumaq"a etiraz

## Ekspert: "Təhsil beyni inkişaf etdirməkdir, başı doldurmaq deyil"

**"Uşaqların dərs yükünün ağır olması, proqramların yüklülüyü, evə verilən tapşırıqların çoxluğu ilə bağlı şikayətlər, narazılıqlar və narahatlıqlar nə dünənin, nə də bu günün məsələsi olmayıb, uzun illərdən bəri müzakirə obyektinə çevrilsə də hələ ki ortaq məxrəci tapılmayan bir problem olaraq qalmaqdadır.**

Məsələ ondadır ki, məktəblərdə tədris proqramının və dərsliklərin yüklü olmasını təkcə valideynlər deyil, psixoloqlar və təhsil mütəxəssisləri də dəfələrlə dilə gətiriblər. Hətta nazirlik rəsmiləri də zaman-zaman bunu etiraf etmək zərurəti qarşısında qalıblar". Bu sözləri Moderator.az-a açıqlamasında **təhsil eksperti Nadir İsrafilov** bildirib.

Ekspert deyib ki, uşaqları ifrat dərəcədə yükləməklə əslində onları bir növ öz uşaqlıq həyatlarını yaşamaqdan məhrum etmiş oluruq: "Bəzi müəllim və valideynlərin uşaqları akademik yükləməklə daha yaxşı öyrənəcəklərini zənn etməli düşüncəsi problemə kökündən yanlış mövqedən yanaşmadır. Uşaqların dərs yükünün optimallaşdırılması üçün müəllimlərlə işləməzdən və valideynlərə izah etməzdən əvvəl proqramları yüngülləşdirməli, dərslikləri gələcək üçün lazımsız materiallardan azad etməliyik. Təhsil beyni inkişaf etdirməkdir, başı doldurmaq deyil. Məktəb öz yetirmələrinə lazımi bilik, bacarıq və vərdişlər aşılamaqla yanaşı, həm də cəmiyyət üçün fiziki və mənəvi cəhətdən sağlam nəsil yetişdirmək qayğısına qalmalıdır".

**Nadir İsrafilova görə, məktəbin vəzifəsi öz yetirmələrini müstəqil həyata hazırlamaqdır:** "Ümumtəhsil məktəbinin məqsədi yetirmələrinə sistemli bilik, bacarıq və



vərdişlər aşılamaq, hərtərəfli və ahəngdar inkişaf etmiş şəxsiyyətyönümlü vətəndaş yetişdirməkdir. Mütəxəssis hazırlamaq isə bilavasitə ali təhsil müəssisələrinin vəzifəsidir. Biz də əsasən bununla razılaşırıq, deyirik, yazırıq, ancaq əməl etmirik, ali təhsil müəssisələrinin görəcəyi işi ümumtəhsil məktəbinin, ümumtəhsil məktəbinin görəcəyi işi isə məktəbəqədər təhsilin üzərinə yükləyirik. Nəticəsi də o olur ki, valideyn artıq birinci sinifdən övladının ixtisaslaşması üçün repetitor axtarışına çıxır, müxtəlif hazırlıq kurslarına üz tutur. Nə baş verir? Hara tələsirik? İstixana üsulu ilə süni intellekt yetişdirmək fikrinə düşmüşük?.. Kurikulumların da əsas tələbi odur ki, səriştəyə əsaslanan şəxsiyyət yönümlü vətəndaş hazırlansın. Əlavə yükləmələr isə, əksinə uşaqları bu səriştə və bacarıqlardan məhrum edir. Uşaqlarımızın sağlamlığı bizim üçün onların təhsilindən heç də az əhəmiyyətsiz deyil. Məşhur "sağlam ruh, sağlam bədəndə olar" kəlamı heç də təsadüfən yaranmamışdır".

Ekspert deyib ki, bu gün biz uşaqlarımızı faktiki bilik qazanmağa, elementar tərbiyə elementlərinə yiyələnməyə deyil, hansısa test suallarına cavab tapmağa yönləndirmişik. Halbuki təhsilə dair heç bir normativ sənəddə orta məktəbin vəzifəsi məhz ali məktəbə tələbə hazırlamaq kimi müəyyənləşdirilməyib. Ümumtəhsil məktəbinin fəaliyyətinin yeni kompleks qiymətləndirmə meyarları hazırlanmalıdır. Məktəbimiz, bütövlükdə təhsilimiz yalnız formaca deyil, məzmun və struktur baxımından yenilənməlidir... Nə qədər ki, bu baş verməyəcək, təhsilalanlarda məktəbə, mükəmməl təhsilə maraq hissi yaranmayacaq. Bu isə yeniyetmə və gənclər arasında bir sıra xoşagəlməz, hətta faciə xarakterli fəsadların baş verməsinə yol açacaq".

❑ **"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 46 (8656) 12 mart 2025

# İdxaldan asılılıq bəlası - yeni faktlar

## Gömrük statistikasına əsasən, Azərbaycanın yeyinti məhsulları idxalı daha da artıb

**Azərbaycanla Avropa İttifaqı (Aİ) ölkələri arasında ticarət dövriyyəsi bu ilin yanvar ayında 2,6 milyard dollar dəyərində olub. Dövlət Gömrük Komitəsinin açıqladığı gömrük statistikasına əsasən, bu, ötən ilin eyni dövrünə nisbətən 2,8 dəfə çoxdur. Hesabat dövründə Azərbaycanın Aİ-yə ixracının dəyəri 2,4 milyard dollar, bu ölkələrdən idxalının dəyəri isə 212,7 milyon dollar təşkil edib.**

Aİ Azərbaycanın xarici ticarətində müsbət saldonun qeydə alındığı çox az istiqamətlərdəndir. Ölkəmizin əksər ticarət tərəfdaşları ilə alverində idxal ixracdan daha yüksəkdir. İdxalın belə çox olması Azərbaycanda inflyasiyanın sürətlənməsinin əsas amillərindən biridir. Bir qayda olaraq, idxal, xüsusilə də ərzaq idxalı inflyasiyanı artıran əsas faktorlar arasında ilk yerlərdə gəlir. Azərbaycanda ailə təsərrüfatlarının ümumi xərcləmələrində ərzaq xərclərinin payı 50 faiz ətrafında dəyişdiyinə görə idxal olunan ərzaq mallarının bahalaşması əhalinin güzəranında dərhal mənfi təsirini büruzə verir.

Gömrük statistikasına əsasən, Azərbaycanın yeyinti məhsulları idxalı 2024-cü ildə 2 milyard 474 milyon 815.90 min dollar təşkil edib. Bu, 2023-cü ildəkindən 315 milyon dollar çoxdur. Ötən il ərzində idxalı artan məhsullar arasında ət idxalının dəyəri 86,7 milyon dollardan 129,6 milyon dollara, kərə yağı və süddən hazırlanmış digər yağların idxal həcmi 92,4 milyon dollardan 173,6 milyon dollara, meyvə-tərəvəz idxalı 230 milyon dollardan 282 milyon dollara, düyü idxalı 50,1 milyon dollardan 66,1 milyon dollara, bitki və heyvan mənşəli piylər və yağların idxalı 184 milyon dollardan 226,5 milyon dollara qədər artıb.

Qida məhsullarından yalnız buğdanın idxal dəyərində azalma qeydə alınıb: 2023-cü ildəki 304 milyon dollardan 2024-cü ildə 279,7 milyon dollara.

Bu ilin yanvarında Azərbaycan xaricdən 203 milyon 85 min dollarlıq yeyinti məhsulu idxal edib ki, bu da 181 milyon 414.42 min dollarlıq idxalın qeydə alındığı 2024-cü ilin yanvarı ilə müqayisədə 12 faiz çoxdur. Yanvarda ət idxalının dəyəri illik ifadədə 8 542.25 min dollardan 9 093.47 min dollara, süd və qaymaq idxalı 1 650.24 min dollardan 1 825.69 min dollara, kərə yağı və süddən hazırlanmış digər yağların idxalı 5 441.84 min dollardan 18 106.29 min dollara, tərəvəz və meyvə idxalı 28 710.90 min dollardan 30 274.76 min dollara, buğda idxalı 16 283.88 min dollardan 18 695.40 min dollara, qarğıdalı idxalı 682.20 min dollardan 4 213.37 min dollara, düyü 5 917.95 min dollardan 8 217.46 min dollara, çay idxalı isə 4 724.02 min dollardan 8 168.04 min dollara yüksəlib. Göründüyü kimi, elə qida məhsulları var ki, idxalı 4-5 dəfə artıb. İdxalında azalma yalnız bir yeyinti məhsulunda qeydə alınıb: Bitki və heyvan mənşəli piylər və yağların idxalı 24 802.45 min dollardan 13 383.37 min dollara qədər.




Qeyd edək ki, yanvarda ölkədə əsas ərzaq məhsullarından olan kənd təsərrüfatı məhsullarının istehsalında artım qeydə alınıb. Dövlət Statistika Komitəsinin hesablamalarına görə, 2025-ci ilin yanvar ayı üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 547,8 milyon manat təşkil edib. Bunun 518,7 milyon manatı heyvandarlıq, 29,1 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür. Əvvəlki ilin müvafiq ayı ilə müqayisədə kənd təsərrüfatının istehsalı 2,2 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 1,3 faiz, bitkiçilik məhsulları üzrə 20,8 faiz artıb.

Yanvar ayında Azərbaycanda quş əti də daxil olmaqla, diri çəkidə 47,3 min ton ət, 159,7 min ton süd, 193,7 milyon ədəd yumurta istehsal edilib. 2024-cü ilin müvafiq ayına nisbətən ət istehsalı 2,0 faiz, yumurta istehsalı 2,9 faiz artıb, süd istehsalı isə 0,6 faiz azalıb. Süd istehsalı azalsa da, maraqlıdır ki, ondan alınan kərə yağı, pendir və qaymaq istehsalında artım var. Belə ki, yanvarda ölkədə 2194,9 ton kərə yağı istehsal edilib ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 4,6 faiz çoxdur. Pendir istehsalı 0,1 faiz artımla 4347,3 ton, qaymaq və xama istehsalı 0,9 faiz artımla 766,1 ton təşkil edib. Yerli istehsal azalsa da, süd və qaymağın idxalında ciddi artım var. Yanvar ayında Azərbaycana 1445,18 ton süd və qaymaq idxal olunub ki, bu da 2024-cü ilin birinci ayı ilə müqayisədə 370,98 ton və ya 34,5 faiz çoxdur.

Məlumat üçün qeyd edək ki, 2024-cü ildə kərə yağı istehsalı 7,9 faiz artımla 29064,2 ton təşkil edib. Bu zaman ölkədə süd istehsalı cəmi 0,6 faiz artımla 2 298,5 min ton olub.

Ötən ildən idxalda başlanan artım bu il də davam edir0 Rəsmi statistikaya əsasən, bu ilin yanvar ayında Azərbaycan xarici ölkələrlə 5 milyard 90,8 milyon ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 70,5 faiz çoxdur. Xarici ticarət dövriyyəsinin 3 milyard 38 milyon ABŞ dolları ixracın, 2 milyard 52 milyon ABŞ dolları isə idxalın payına düşüb. Beləliklə, ixrac illik ifadədə 64,8 faiz, idxal isə 79,7 faiz artıb. Ayın yekununda xarici ticarətdə 986 milyon dollarlıq müsbət saldo yaranıb. Bu da illik müqayisədə 40,5 faiz çoxdur.

Azərbaycanın qeyri-neft sektoru üzrə ixracında kənd təsərrüfatı məhsulları ciddi paya malikdir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın mart sayının ilkin göstəricilərinə əsasən 2025-ci ilin yanvar-fevral aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz artaraq 485 milyon ABŞ dolları təşkil edib. Bu zaman yeyinti məhsullarının ixracı 12,3 faiz artaraq 153,9 milyon ABŞ dollarına bərabər olub. Bu dövrdə ixrac olunan qara metallar və ondan hazırlanan məmulatlar 66.9 faiz, şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 47 faiz, alkoqollu və alkoqolsuz içkilər 39,2 faiz, kimya sənayesi məhsulları 30 faiz, çay 21.3 faiz, alüminium və ondan hazırlanan məmulatlar 2.8 faiz artıb.

2025-ci ilin yanvar-fevral aylarında aqrar məhsulların ixracı 9,5 faiz artaraq 119,7 milyon ABŞ dolları, aqrar-sənaye məhsullarının ixracı isə 17,7 faiz artaraq 43 milyon ABŞ dollarına bərabər olub. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 11,6 faiz artaraq 162,8 milyon ABŞ dolları təşkil edib.

Lakin bu ixracdan əldə olunan gəlirlər idxala çəkilən xərcləri qarşılamaq baxımından yetərli deyil. Ölkənin əsas ərzaq məhsullarının əksəriyyəti ilə təminatında aparıcı payı xaricdən idxal təşkil etdiyinə görə qlobal bazarlarda baş verən qiymət dalğalanmaları daxili bazarda dərhal hiss olunur. Bu baxımdan, dünyanın bir saylı iqtisadiyyatına malik ABŞ-da baş verənlər böyük təhdidlər formalaşdırır. Belə ki, ABŞ prezidenti Donald Trampın rüsum siyasəti qlobal bazarlarda qeyri-müəyyənliyi sürətlə artırır. Yeni administrasiyanın əksər ticarət tərəfdaşlarına qarşı rüsumları artırması və ona qarşılıq olaraq qarşı tərəflərin də eyni addımları atması ABŞ-da inflyasiyanı sürətləndirəcək əsas amilə çevrilib. Artıq ABŞ və dünya analitik mərkəzlərində cari ildə ABŞ-da iqtisadi geriləmənin olacağına dair proqnozlar səsləndirilməyə başlayıb.

Azərbaycan Mərkəzi Bankı 2025-ci ilin yanvar ayında illik inflyasiya proqnozlarını yeniləyib. Bankın açıqladığı məlumatdan aydın olur ki, yenilənmiş proqnozlarda illik inflyasiyanın cari ildə 5,5 faiz, 2026-cı ildə 3.8 faiz ətrafında olacağı nəzərdə tutulur.

Dövlət Statistika Komitəsinin hesablamalarına əsasən 2025-ci ilin yanvar ayında istehlak qiymətləri indeksi 2024-cü ilin yanvar ayına nisbətən 5,4 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 5,0 faiz, qeyri-qida məhsulları üzrə 2,6 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 8,4 faiz artıb. Yanvar ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 1,0 faiz yüksəlib.

Bundan əlavə, yanvar ayında 2024-cü ilin dekabr ayı ilə müqayisədə sənaye məhsullarının istehsalçı qiymət indeksi 3,8 faiz artıb. Qeyri-neft-qaz sənayesi üzrə göstəricidə illik 4,6 faiz artım olub. 2025-ci ilin yanvar ayında 2024-cü ilin dekabr ayı ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi 1,0 faiz, o cümlədən bitkiçilik məhsulları üzrə 1,7 faiz, heyvandarlıq məhsulları üzrə 0,3 artıb. İllik ifadədə kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indekslərində 7,7 faiz artım qeydə alınıb. İstehsalçı qiymət indekslərindəki artım adətən 1-2 ay ərzində istehlak qiymətlərində əksini tapır.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 46 (8656) 12 mart 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**

# Televiziyada animasiyaya niyə yer yoxdur?

## Xarici cizgi filmləri böyük populyarlıq qazanmasına baxmayaraq, yerli animasiya sektorunda nəzərəçarpacaq boşluq var

**Cizgi filmləri və animasiyalar təkcə uşaqlar üçün deyil, böyüklərin də ruhunu oxşayan bir sənət növüdür. Dünya miqyasında məşhur olan "The Lion King", "Spirited Away", "Frozen" kimi cizgi filmləri milyonlarla insanın qəlbini fəth edib, hətta "Oscar" mükafatlarına layiq görülüb. Bu filmlər təkcə əyləndirmir, həm də dərin mənalar, həyati dərslər və emosional anlarla tamaşaçını düşündürür.**



Azərbaycanda da cizgi filmlərinə maraq böyükdür. Xüsusilə xarici studiyaların - Disney, Pixar, Studio Ghibli kimi nəhənglərin təqdim etdiyi animasiyalar ölkəmizdə geniş izləyici kütləsi qazanıb. Ancaq maraqlı bir məqam var: xarici cizgi filmləri böyük populyarlıq qazanmasına baxmayaraq, yerli animasiya sektorunda nəzərəçarpacaq boşluq mövcuddur.

Xatırladaq ki, Azərbaycanın cizgi film tarixi 1930-cu illərə dayanır. İlk yerli animasiya olan "Abbasın Bədbəxtliyi" (1935) cizgi sənətimizin təməlini qoyub. Filmin rejissoru D. Dikaryovdur. Film "Azərfilm"də Azərbaycan xalq nağıllarının motivləri əsasında çəkilib. Bu film müsəlman dünyasında hazırlanmış ilk cizgi filmidir. Bununla Azərbaycan həm də SSRİ-də ikinci ölkə olub ki, cizgi filmi istehsal edib.

Bundan sonra Azərbaycan cizgi filmi sənəti XX əsrin ortalarından inkişaf etməyə başlayıb. "Cırtdan", "Qızıl balıq", "Fitnə", "Əladdin və sehrli çıraq" kimi filmlər bir zamanlar uşaqların sevimlisi olub. Bu filmlər həm milli adət-ənənələri təbliğ edir, həm də xalq nağıllarını yeni nəsillərə çatdırırdı. Lakin zamanla bu sahədə istehsal azaldı və müasir yerli cizgi filmləri demək olar ki, görünməz oldu.

Animatorlar bildirir ki, yerli animasiyanın zəifləməsinin bir neçə səbəbi var və əsas səbəblərdən biri maliyyə çatışmazlığıdır. Belə ki, animasiyanın hazırlanması böyük büdcə tələb edir. Texnologiya, ssenari işi, səsləndirmə və qrafika ciddi investisiyalar tələb edir.

**Əməkdar incəsənət xadimi, aktyor-rejissor Elxan Cəfərov bununla bağlı "Yeni Müsavat"a açıqlamasında deyib ki, animasiya filmləri adi kinodan təxminən 1,5 dəfə daha bahalı istehsal prosesinə malikdir:** "Kənardan asan görünə bilər ki, animasiya filmi çəkmək daha sadədir, bədii kino isə daha mürəkkəb və ciddi prosesdir. Lakin dünya istehsalat prosesinə nəzər salsaq görərik ki, animasiya filmlərinin maliyyə büdcəsi bəzi hallarda hətta tarixi filmlərdən də yüksək olur. Bu da keyfiyyətə bilavasitə təsir göstərir. Burada həm yaradıcı, həm də texniki proses əsas rol oynayır. Ən vacib amillər isə zaman, maliyyə və texniki məsələlərdir. Bunlar həll olunduqdan sonra keyfiyyət haqqında danışmaq olar. Dünya animasiya istehsalı ilə Azərbaycan animasiyasını eyni səviyyəyə qoymaq mümkün deyil. Çünki qeyd etdiyim kimi, oradakı maliyyə və sistem tam fərqlidir. Hazırda bizdə bu sahədə vəziyyət olduqca çətindir".

Bununla belə, son iki ildir dövlət, özəl və ictimai sektorun dəstəyi ilə bu sahədə yeni canlanma müşahidə olunur. Buna misal olaraq, son dövrlərdə çəkilən animasiyaları göstərmək olar. Qeyd edək ki, 2023-cü ildə Azərbaycan animasiyasında iki yeni film istehsal olunub. Onlardan biri "Baharın oğurlanması" animasiya filmidir, hansı ki, "Azanfilm" studiyası tərəfindən çəkilib. Baharın gəlişini simvolizə edən bu animasiya uşaqlara təbiətin dəyərlərini aşılayır. Filmin müddəti 20 dəqiqə 28 saniyədir. "Baharın gəlişi" 6-cı ANİMAFİLM Beynəlxalq Animasiya Festivalında "Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi" mükafatına layiq görülüb, 3-cü "Korkut Ata" Türk Dünyası Film Festivalında nümayiş olunub.

"Hədis" - "Animafilm" studiyası tərəfindən istehsal edilən bu film maraqlı süjet xətti ilə fərqlənir və tamaşaçılara etik və əxlaqi mesajlar ötürür. Film 2022-ci il sentyabrın 21-də İranda baş vermiş etiraz aksiyaları zamanı Kərəc şəhərində təhlükəsizlik qüvvələri tərəfindən qətlə yetirilmiş Azərbaycan türkü Hədis Nəcəfiyə həsr edilib.

Məlumata görə, Kino Agentliyinin (ARKA) dəstəyi ilə hazırda bir neçə qısametrajlı, tammetrajlı və serial animasiya layihələri üzərində işlər gedir.

Həmçinin Mədəniyyət və İncəsənət Universitetində animasiya üzrə ali təhsil davam edir. Bundan əlavə, Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Animator's Accelerator" (Animatorların İnkişaf Proqramı) adlı uzunmüddətli kurslar təşkil edilib. Bu proqram tələbələrin həm yerli, həm də beynəlxalq layihələrdə iştirak etməsinə imkan yaradır.

Beləliklə, animasiya filmlərinin istehsalı son bir neçə ildə canlanmağa başlasa da, onların geniş auditoriyaya çatdırılması hələ də ciddi maneələrlə üzləşir. Göründüyü kimi, bu filmlər əsasən festivallarda nümayiş olunur və beynəlxalq tədbirlərdə təqdim edilir. Lakin yerli telekanallarda animasiya filmlərinə ayrılan efir vaxtı olduqca məhduddur. Nəticədə, yerli animasiya nümunələri geniş tamaşaçı kütləsinə, xüsusilə uşaqlara çata bilmir.

Televiziyada animasiya filmlərinin müntəzəm nümayişi təkcə bu sahəyə marağı artırmaz, həm də yerli animatorları daha çox layihə yaratmağa həvəsləndirərdi. Eyni zamanda bu, uşaqların milli mədəniyyət və dəyərlərlə tanış olması üçün əvəzsiz vasitədir. Buna görə də yerli telekanalların animasiya filmlərinə minimal ekran vaxtı ayırması və müasir Azərbaycan animasiyasının daha geniş auditoriyaya təqdim edilməsi vacibdir.

Bu məsələni həll etmək üçün televiziya kanallarının cizgi film blokları yaratması, mütəmadi yayımlar təşkil etməsi və hətta animasiya mövzusunda xüsusi verilişlər hazırlaması mühüm addım olardı.

**Azərbaycan Respublìkasının Medìanın İnkìşafı Agentlìyìnìn malìyyəsì əsasında nəşr olunur. Yazını hazırladı: Xalìdə GƏRAY**

# Həm qəliz, həm vacib məsələ - kino...

## Bu sənayedə çalışanlar üçün "Cinema Talks" mühüm platforma rolunu oynaya biləcəkmi?

**Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə kino sənayesi nümayəndələrinin iştirakı ilə "Cinema Talks" ("Kino müzakirələri") adlı panel müzakirəsi keçirilib.**




"Kino Sənayesi İnkişafı Fondu" İctimai Birliyinin sədr müavini Azər Aydəmir çıxışında "KinoPark" layihəsi barədə danışıb və təqdim etdiyi layihə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının yenidən bərpası ilə bağlı olub.

Qeyd edib ki, bu prosesin uğurla həyata keçirilməsi nəticəsində kinostudiya daha müasir və funksional bir məkana çevriləcək: "Bu layihənin tam gücü ilə işləməsi və real nəticə verməsi üçün 3 ildən 5 ilə qədər bir müddət tələb olunur. Təbii ki, dövlət dəstəyi vacibdir və ilkin mərhələdə əsas prioritet kinostudiyanın infrastrukturunun bərpası olacaq. İndiyədək aparılan danışıqlar artıq bir ili əhatə edir və layihənin geniş miqyasda icrası üçün davamlı dəstək lazımdır".

O əlavə edib ki, ümumilikdə bu layihənin reallaşması nəticəsində kinostudiya təkcə yerli kino istehsalı üçün deyil, həm də beynəlxalq film sənayesində mühüm bir mərkəzə çevriləcək.

**ARKA-nın əməkdaşı Turan Məmmədli** "Milli dublyaj sənayesinin inkişafı" layihəsi barədə məlumat verib. Qeyd edib ki, bu sahənin inkişafı üçün sistemli və ardıcıl tədbirlərin görülməsi vacibdir. Milli dublyaj sənayesinin genişləndirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması üçün infrastrukturun təkmilləşdirilməsi, yeni texnologiyalardan istifadə və peşəkar kadrların hazırlanması əsas prioritetlərdəndir.

Bildirib ki, bu sahədə keyfiyyətin artırılması üçün xüsusi strategiya hazırlanıb və bu strategiya çərçivəsində dublyaj sahəsinə dövlət dəstəyinin gücləndirilməsi, yerli studiyaların inkişafı və yeni səs aktyorlarının yetişdirilməsi nəzərdə tutulur. Həmçinin bu prosesdə kinofilmlərin orijinal atmosferini qorumaq və tamaşaçılara yüksəkkeyfiyyətli dublyaj təqdim etmək əsas məqsədlərdən biridir: "Layihənin uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan filmləri beynəlxalq platformalarda daha geniş yayılacaq, eyni zamanda xarici filmlər də yüksəkkeyfiyyətli dublyajla yerli auditoriyaya təqdim olunacaq. Bu, həm milli kinomuzun inkişafına, həm də Azərbaycan dilinin qorunmasına mühüm töhfə verəcək".

Daha sonra Mədəniyyət Nazirliyinin "Yaradıcı Azərbaycan" layihəsinin tədbirlər planı çərçivəsində təşkil olunan müzakirə zamanı Azərbaycan kino sənayesinin gələcək inkişaf perspektivləri, mövcud çağırışlar və beynəlxalq əməkdaşlıq imkanları barədə geniş diskussiya aparılıb.

Panel müzakirədə çıxış edən Mədəniyyət Nazirliyinin sektor müdiri Günay Rəhimova, "Azərbaycan Prodüserlər Gildiyası" İctimai Birliyinin sədri Müşfiq Hətəmov, "Kino Sənayesi İnkişafı" Fondu İctimai Birliyinin sədr müavini Azər Aydəmir və Mədəniyyət Nazirliyinin Yaradıcı Sənayelər və Rəqəmsal İnkişaf şöbəsinin müdiri Rəşad Əzizov Azərbaycan kino sənayesindəki mövcud vəziyyət barədə danışıblar.

Çıxışlarda film istehsalı, bu sahədə infrastrukturun inkişafı və beynəlxalq əməkdaşlıq məsələlərinə toxunulub. Panel iştirakçıları yerli kino sənayesinin inkişafı üçün strateji yanaşmalar, dövlət dəstəyi mexanizmləri və yaradıcı mühitin gücləndirilməsi istiqamətində görüləcək işlər barədə fikirlərini bölüşüblər.

Paneldə həmçinin kinofestivalların və kino fondlarının müştərək istehsal üçün platforma kimi rolu, beynəlxalq müştərək filmlərin çəkilişindəki prioritetlər, kinoteatr infrastrukturunun inkişafı, regionlarda yeni kinoteatrların açılması, dublyaj sənayesinin dəstəklənməsi, "Baku Cinema Breeze" (BCB) kimi festivalların təşkilinin əhəmiyyəti, Türk dünyası ilə kino sahəsində birgə istehsalın (koproduksiya) təşviq olunması və digər mövzular üzrə fikir mübadiləsi aparılıb.

Həmçinin satış potensialı məhdud olan filmlərin istehsalına dəstək sisteminin yaradılması, yerli filmlərə olan tamaşaçı marağının artırılması üçün effektiv mexanizmlərin tətbiqi və xarici kino istehsalçılarının Azərbaycan ərazisində kino istehsalı istiqamətindəki potensial imkanları barədə də müzakirələr aparılıb.

Xüsusi olaraq vurğulanıb ki, kino sənayesində çalışan rejissorlar, prodüserlər, aktyorlar, ssenaristlər, investorlar və kinoya maraq göstərən digər şəxslər üçün "Cinema Talks" yeni əməkdaşlıqlar qurmaq və fikir mübadiləsi aparmaq baxımından mühüm platforma rolunu oynayır.

❑ "Yeni Müsavat"

YENİ MÜSAVAT

Son səhifə

N 46 (8656) 12 mart 2025



## Sahurda alma sirkəsi için - möcüzəvi faydası çoxdur

**Sahurda alma sirkəsinin istehlakı qan şəkəri səviyyəsinin sürətlə qalxıb düşməsinin qarşısını alır, gün ərzində daha balanslı enerji axını təmin edir. Bu sayədə alma sirkəsi istehlakı həm aclıq hissinin qarşısını alır, həm də uzun müddət tox saxlayır.**

Milli.Az sahurda alma sirkəsi içməyin faydalarını təqdim edir:

Qan şəkərini tənzimləyə bilər - oruc zamanı uzun müddət ac qalındığı üçün qan şəkərinin balanslı qalması vacibdir. Alma sirkəsi insulin həssaslığını artıraraq qan şəkərinin qəfil yüksəlməsinin qarşısını ala bilər.

Həzm sistemini dəstəkləyir - oruc müddətində mədə boş olduğu üçün həzmi yaxşılaşdırmaq vacibdir. Alma sirkəsi mədə turşusunu artıraraq həzmə kömək edə bilər.

Susuzluğu azalda bilər - bəzi insanlar sahurda alma sirkəsi içdikdən sonra gün ərzində daha az susadıqlarını bildirirlər.

Metabolizmi sürətləndirə bilər - yağ yandırmağa və çəki nəzarətinə kömək edə bilər.

**Diqqət edilməli məqamlar:**

Ac qarına içmək olmaz - Mədəni qıcıqlandıra bilər. Mütləq su ilə qarışdırılmalıdır. (1 stəkan suya 1 xörək qaşığı alma sirkəsi)

Mədə problemləri olanlar ehtiyatlı olmalıdır - reflü və ya qastrit kimi problemləriniz varsa, alma sirkəsi narahatlıq yarada bilər.

Diş minasına zərər verə bilər - daimi istifadə edirsinizsə, içdikdən sonra ağzınızı su ilə yaxalamaq faydalı olar.

Əgər sahurda alma sirkəsi içmək istəyirsinizsə, 1 çay qaşığı sirkəni 1 stəkan ılıq su ilə qarışdırıb içmək ən yaxşı üsuldur.

# Hansı pozada yatmaq təhlükəlidir?



**"Yuxu üçün ən pis poza qarnıüstə uzanmaqdır". Oxu.Az-ın xəbərinə görə, "HuffPost" nəşri yuxu üzrə məşqçi (kouç) Ceyms Uilsonun bu barədə fikirlərini dərc edib. Mütəxəssisin sözlərinə görə, qarnıüstə yatmaq onurğa sütunu, boyun, omba, diz və daxili orqanlar üçün zərərlidir. "Gecə istirahəti zamanı bədənin bu vəziyyətdə qalması travmalara, fəqərələrin yerindən çıxmasına, boyunun dartılmasına səbəb ola, həmçinin yuxunun keyfiyyətini və davamlılığını pisləşdirə bilər", - deyə o bildirib.**

Uilsonun qeyd etdiyinə görə, qarnıüstə yatmağa daha təhlükəsiz alternativ yan tərəfə uzanıb ayaqlarının arasına yastıq qoymaqdır. Mədə-bağırsaq xəstəlikləri üzrə ixtisaslaşmış cərrah Karan Racan da bu fikirlə razıdır. Onun sözlərinə görə, mədə-bağırsaq pozğunluqları zamanı sağ tərəf deyil, sol tərəf üzərində yatmaq daha faydalıdır. Bu vəziyyət, həkimin bildirdiyinə görə, mədənin içindəkilərinin qida borusuna daxil olmasını çətinləşdirir ki, bu da turşu reflüsünün riskini azaldır.

# Mərkəzi Amerikanın ən aktiv vulkanı püskürdü



**Qvatemala hakimiyyəti Mərkəzi Amerikanın ən aktiv vulkanı olan Fueqo vulkanının püskürməsi ilə əlaqədar minə yaxın insanı təxliyə edib. Paytaxtdan 35 kilometr aralıda yerləşən vulkan martın 9-da səhər saatlarında aktivləşməyə başlayıb. Yerli sakinlər bərk gurultu səsi eşidiblər, sonra isə püskürmə, lava, kül və daşları görüblər. Ardınca həyəcan siqnalı verilib. Əgər vulkan aktivliyini davam etdirsə, daha 30 min nəfər risk zonasına düşəcək və evlərini tərk etməyə məcbur qalacaq.**



## Yeni buz dövrü nə vaxt başlayacaq?

**"Yeni buz dövrü 10 min ildən sonra başlayacaq". Bu qənaətə ABŞ-ın Santa-Barbara şəhərindəki Kaliforniya Universitetinin alimləri gəliblər. Jurnalın bildirdiyinə görə, bu prosesdə Yer oxunun əyilməsindəki kiçik dəyişikliklər mühüm rol oynayır. Eyni zamanda bir çox alimlər iqlim dəyişikliklərini qlobal istiləşmə ilə əlaqələndirirlər. Məqalədə həmçinin belə bir ehtimal irəli sürülüb ki, gələcəkdə bir neçə kilometr hündürlükdə olan buzlaq Rusiyanın mərkəzinə doğru hərəkət edə bilər və bu, çox şeyin qlobal istiləşmənin intensivliyindən asılı olacağını göstərir.**

## Bunları bilirsinizmi?

* Yeməkdən qabaq dişlərinizi fırçalasanız daha az yemək yeyəcəksiniz.
* Hıçqırığınız tutduğu zaman 10 saniyə nəfəs almayın və 3 dəfə udqunun. Hıçqırığınız keçəcək.
* Əgər soyuq duş altında 3 dəqiqə dayansanız, 40 kalori yandıracaqsınız .
* Qədəhdəki şərabın keyfiyyətini öyrənmək istəyirsinizsə, qədəhi asta çalxalayın. Qədəhin içindəki çöküntü nə qədər qatıdırsa, şərab bir o qədər keyfiyyətlidir.
* Yumurtanı qaynadarkən onun çatlamasını istəmirsinizsə, qaba yanmış kibrit qoyun.
* Tərə qarşı dezodorantları səhər yox, gecə vurun. Bu, daha uzun müddətə qoxunun qarşısını alacaq.
* Ütünün suyunun içinə bir az ətir vursanız, paltarlarınızdan gözəl qoxu gələcək.
* Külqabının pis iylənməməsi üçün onu su ilə yox, zeytun yağı ilə isladın.
* Pişiklərin divan və ya kreslonuza oturmasını istəmirsinizsə, həmin yerə naftalin qoyun. Pişiklər onu heç sevməzlər.
* Saçlarınızı boyadarkən üzünüzə dəyən boyanı südə batırılmış pambıqla silin.
* Yata bilmirsinizsə, albalı suyu için.
* Zibil qutunuzun içinə soda və ya qabartma tozu töksəniz pis qoxunun qarşısını ala biləcəksiniz.
* Yumurtanı qaynatdıqdan sonra qalan suyu dibçəyə tökün. Bitkilərə çox xeyirlidir.
* Dırnaq boyasından qalan sarılığı götürmək üçün dırnağa sirkə sürtün. Rəngini açacaq.
* Mədəniz bulanırsa bir stəkan qəhvə için.

Mart

# "Reels" izləmək beyni zəiflədir



**Araşdırmalar göstərir ki, sosial şəbəkələrdə qısa videolar, xüsusilə TikTok, İnstagram Reels və YouTube Shorts kimi platformalarda yayımlanan məzmun beynin diqqət müddətinə, dopamin sisteminə və ümumi kognitiv funksiyalarına ( (lat. cognitio - "başa düşmək, dərk etmək, öyrənmək") təsir edir.**

Qısa videolar beynin mükafat sistemini stimullaşdıraraq dopamin ifrazını artırır. Bu isə istifadəçilərdə sürətli məmnunluq hissi yaradır və nəticədə alışqanlıq, hətta asılılıq formalaşa bilər. Videoların sürətli dəyişməsi diqqət müddətini qısalda və uzunmüddətli diqqət tələb edən tapşırıqlara fokuslanma qabiliyyətini zəiflədə bilər. Tədqiqatlar göstərir ki, bu, xüsusilə gənc istifadəçilərdə akademik performansa mənfi təsir edə bilər, çünki onlar mürəkkəb və uzunmüddətli məzmunları anlamaqda çətinlik çəkirlər. Bundan əlavə, qısa video istehlakı emosional vəziyyətə də təsir edə bilər - stres, narahatlıq və hətta depressiya riskini artıra bilər.

Davamlı olaraq qısa videolar izləmək beynin diqqət və yaddaşla bağlı bölgələrində dəyişikliklərə səbəb ola bilər. Bununla yanaşı, belə məzmunlar insanı yeni və daha stimullaşdırıcı videolar axtarmağa yönəldir ki, bu da diqqət yayındırıcı təsir yaradır və real həyatda uzunmüddətli diqqəti saxlamağı çətinləşdirir. Bəzi araşdırmalarda isə qısa videoların istifadəsinin sosial bacarıqları azalda biləcəyi və üzbəüz ünsiyyətə mənfi təsir göstərə biləcəyi qeyd olunur. Bu təsirlər xüsusilə yeniyetmələr və gənclər üçün risklidir, çünki onların beyin inkişafı davam edir və bu cür məzmunların istifadəsi uzunmüddətli vərdişlər formalaşdıra bilər. Akademik uğur və ümumi həyat keyfiyyətini qorumaq üçün qısa video istehlakını məhdudlaşdırmaq və balanslı sosial media istifadəsi vacibdir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.